**- Prezident Əliyev, üzr istəyirəm. Bilirəm Siz bizə tarixini danışmaq istəyirsiniz, lakin Sizinlə iki məqama aydınlıq gətirmək istəyirəm. Siz hərbçilər arasında itkiləri qeyd etdiniz. Niyə Siz hərbi itkilərinizlə bağlı rəqəmləri açıqlamırsınız? Siz narahatsınız ki, insanlar bu müharibədə nə qədər gənc insanın həlak olduğunu görsə, dəstək zəifləyə bilər?**

- Xeyr, qətiyyən. Birincisi, bizdə çox deyil. Əgər siz müharibənin miqyasına və bizim Ermənistanın 30 il ərzində tikdiyi istehkamları, bütün mövqeləri dağıtmalı olduğumuza baxsanız, bizim itkilərimiz minimaldır. Əlbəttə ki, biz bu cür danışa bilmərik. Hər bir insanın həyatı qiymətsizdir. Lakin bizim itkilərimiz Ermənistanınkından xeyli aşağıdır. Çünki bizim hərbi imkanlarımız daha yaxşıdır və bizim minimum itki verməyə imkan yaradan müasir silahlarımız var, xüsusilə həmin dronlar. Çünki həmin dronlar olmasaydı, bütün o tanklar və toplar çox sayda adamı öldürərdi. Səbəb o deyil ki, biz düşünürük ictimaiyyətin dəstəyini almarıq, əksinə. Yaxın qohumlarını, oğullarını, qardaşlarını itirən insanlar bizdən dayanmamağı xahiş edirlər. Təsəvvürünüzə gətirə bilərsiniz? Hər gün mən minlərlə məktub alıram, minlərlə məktub. O məktubların heç birində mən “Dayanın” sözünü görməmişəm. Onlar deyirlər, mən oğlumu itirmişəm, qardaşımı itirmişəm, həyat yoldaşımı itirmişəm, xahiş edirik, sona kimi gedin. Xahiş edirik, sona kimi gedin. Çünki bizim xalqımız bu vəziyyətdə, demək olar ki, 30 il yaşayıb.

**- Prezident Əliyev, amma demək olar belə çıxmır ki, Sizin bu müharibədən başqa yolunuz yoxdur, Siz hər sonuncu qarışı geri almaq üçün döyüşməlisiniz?**

- Bəli, mənim dediyim məhz budur. Lakin, eyni zamanda, mən əvvəldən demişəm ki, əgər Paşinyan şəxsən özü, xarici işlər naziri deyil, şəxsən özü desə ki, Ermənistan Ağdamdan, Kəlbəcərdən, Laçından, boşaltmalı olduqları 3 qalan rayondan qoşunlarını çıxarır və bizə vaxt cədvəli versə, biz dərhal dayanarıq. Biz bu müharibəni davam etdirmək istəmirik. İstəmirik. Biz dayanmaq istəyirik. Mənim indi dediyim lap əvvəldən dediklərimdir. Məni tanıyan insanlar bilirlər ki, mən sözümə əməl edən insanam. Mən nə deyirəmsə, onu edirəm. Əgər Paşinyan bunu bu gün desə, sizə söz verirəm ki, biz dərhal dayanarıq. Amma o, bunu etmir. O, bunu etmir. O, geri almaq istəyir. O, öz qüvvələrini yenidən qruplaşdırmaq, daha çox insan səfərbər etmək üçün bu atəşkəs imkanından istifadə etmək istəyir. Qeyd etdiyiniz ki, indi o, hərbi dəstək üçün Prezident Putinə məktub göndərib, bununla da öz məğlubiyyətini etiraf edib. Əgər o, məğlubiyyətini etiraf edibsə, niyə demir ki, əraziləri boşaldacaq? Bu ərazilər Ermənistana məxsus deyil. Bu, bizim torpaqlarımızdır. Onlar bu əraziləri bizə geri qaytarmalıdırlar. Əgər onlar bunu etməsələr, dediyim kimi, biz sona qədər gedəcəyik. Dayanmağın yolu yoxdur.

**- Siz bilirsiniz Sizin qüvvələrinizin fəaliyyəti nəticəsində Dağlıq Qarabağda neçə mülki şəxs həlak olub?**

- Xeyr, bilmirik. Biz Ermənistanın Müdafiə Nazirliyinin rəsmi məlumatını eşitmişik. Biz bu rəsmi məlumata inanmırıq.

**- Onlar 45 mülki şəxs deyir.**

- Bəli, bilirəm 45, ya 47 - biz bilmirik. Mən bilmədiyim bir şeyi deyə bilmərəm. Lakin mən düşünürəm ki, bu, çox şişirdilib. Çünki biz onların kəndlərinə hücum etməmişik. Biz onların şəhərlərinə hücum etməmişik.

**- Hörmətli Prezident Əliyev, onların kənd və şəhərlərinə hücumlarla bağlı sənədli sübutlar var.**

- Mən hələ bitirməmişəm. Biz Xankəndiyə hücum etmişik, çünki Xankəndi hərbi istehkamlarla dolu idi, biz onları məhv etməli idik.

**- Mülki şəxslərin evləri dağılıb.**

- Müharibə vaxtı bu, bəzən baş verir. Belə olur. Biz o qədər dəqiq deyilik, əgər onların artilleriyası düz evin yanındadırsa. Bu, Gəncədə olduğu kimi deyil ki, onlar bəlkə də 20-30 kilometr radiusunda heç bir hərbi obyektin olmadığı mülki obyektə qəsdən ballistik raketlərlə hücum etdilər.

**- Mülki şəxslərin ölümü ilə bağlı məlumatlar Sizi narahat edirmi?**

- Bəli, əlbəttə. Mən təəssüf edirəm. Təəssüf edirəm ki, bu, baş verib. Mən qohumlarını itirən hər kəsə başsağlığı verirəm. Mən Dağlıq Qarabağdakı mülki şəxsləri nəzərdə tuturam. Lakin yenə də münaqişənin miqyasını nəzərə alaraq, yenə də hər bir insanın həyatı qiymətsizdir deyərək, itkilər yenə də çox aşağıdır. Bu, onu göstərir ki, biz mülki şəxslərə qarşı döyüşmürük. Bilirsiniz onlar 1990-cı illərdə müharibədə neçə mülki şəxsi qətlə yetiriblər? Minlərlə, minlərlə. Xocalı soyqırımında onlar 63-ü uşaq, 106-sı qadın olmaqla, 613 günahsız insanı qətlə yetiriblər, onların yalnız azərbaycanlı olduqlarına görə. Xocalı soyqırımı çox yaxşı tanınan sübuta yetirilmiş faktdır.

**- Siz bu qışda Dağlıq Qarabağda humanitar fəlakət təhlükəsinin olmasını qəbul edirsiniz? Siz yaxınlaşırsınız və tezliklə ərazini mühasirəyə almaq mövqeyində ola bilərsiniz. İçəridəki mülki şəxslərin taleyi necə olacaq?**

- Bu sual mənə yox, Paşinyana verilməlidir ki, dayansın və mən necə dayanmağı deyirəm.

**- Lakin Siz onları təcrid edə bilərsiniz. Əgər Sizin qüvvələriniz onları təcrid etsə, onlar necə sağ qalacaq?**

- Biz onların qayğısına qalacağıq. Onların qayğısına qalacağıq. Buna qətiyyən şübhə olmasın. Biz onları hər şeylə - ərzaqla, su ilə, hər şeylə təmin edəcəyik. Buna şübhə olmasın. Münaqişənin ilk saatlarında bizim bütün hərbi komandirlərimiz məndən birbaşa göstəriş alıblar ki, mülki şəxslərin qayğısına qalınmalıdır. Siz bizim Hadrutda tapdığımız yaşlı iki adam haqqında əhvalatı bilirsiniz? Onların qohumları və hərbçilər onları, sadəcə olaraq, tərk edərək qaçmışdılar. Bir qadın və bir kişi, təxminən 90 yaşlarında. Biz onları buraya, Bakıya gətirdik, xəstəxanaya yerləşdirdik və onları Ermənistana təhvil verdik. Bilirsiniz nə baş verdi? Həmin yaşlı kişi artıq sərhəddə, Qazaxda, buradan uzaqda olanda, ermənilər onu qəbul etməkdən imtina etdilər. Onlar dedilər ki, o, xəstədir, tezliklə öləcək, biz onu istəmirik. Bilirsiniz? Onlar məhz belə etdilər. Həmin şəxs Qırmızı Xaçın himayəsi altında xəstəxanaya yerləşdirildi və qadın onlara təhvil verildi. Əfsuslar olsun ki, kişi öldü. Biz mülki şəxslərlə bu cür davranırıq. Ona görə də, hazırda Dağlıq Qarabağda yaşayan həmin mülki şəxslər tam əmin ola bilərlər ki, biz onların qayğısına qalacağıq və onlar Azərbaycanın himayəsi altında daha yaxşı yaşayacaqlar.

**- Lakin onların təxminən 90 mini artıq qaçıb. Görünür Sizin təminatlarınız onları sakitləşdirmir.**

- Bizdə olan məlumata görə, Dağlıq Qarabağda yaşayan real əhali 60-70 min nəfər olub. Bütün bu rəqəmlər çox şişirdilib. Ona görə də, mən şübhə edirəm ki, 90 min nəfər qaça bilər, çünki maksimum 70 min nəfərdir.

**- Prezident Əliyev, Sizə uzunmüddətli perspektivlə bağlı sual verə bilərəm? Cənubi Qafqazın gələcəyini necə görürsünüz? Buraya sülhün gəlməyini necə görürsünüz? Demək istəyirəm ki, Azərbaycanla Ermənistan arasında nə vaxtsa sülhün olacağı günü görürsünüzmü?**

- Bəli, əgər mənim mövqeyimi soruşursunuzsa, düşünürəm ki, bu, mümkündür. Lakin bu, təkcə məndən asılı deyil. Bu, yalnız Ermənistan tərəfindən asılıdır. Müharibənin bu 40 günü ərzində mən dəfələrlə demişəm ki, Cənubi Qafqazın 3 ölkəsinin birlikdə işləyəcəyi günü görmək arzusundayam, necə ki, məsələn, biz yaxın strateji tərəfdaşımız və dostumuz olan Gürcüstanla edirik. Baxın, biz onlarla neçə layihə həyata keçirmişik, bizim əlaqələrimiz necə yaxındır. Bu əlaqələr tarixi irsə, praqmatizmə, maraqlarımızın balansına əsaslanır. Niyə Ermənistan təcrid olunub? İşğal səbəbindən. Əgər siz, məsələn, bizim enerji və nəqliyyat layihələrimizin xəritəsinə baxsanız görərsiniz ki, onlar Ermənistandan yan keçir. Bizim resurslarımızı beynəlxalq bazarlara nəql etməyimiz üçün ən qısa yol Ermənistandan keçir və biz 1990-cı illərdə bunu onlara təklif etmişik. Biz dedik - əraziləri boşaldın, gəlin, Ermənistan ərazisindən keçməklə Naxçıvan və sonra Türkiyəyə daxil olan kəmər tikək, onda biz bütün ölkələrin maraqlarını birləşdirərik, regionun bütün ölkələrini müəyyən mənada bir-birindən asılı edərik və bu, sülhün təminatı olar. Onlar dedilər - yox. Mən Minsk qrupu həmsədrləri vasitəsilə, - onlar bunu təsdiqləyə bilərlər, - dəfələrlə maliyyə yardımı, Dağlıq Qarabağda sosial proqramlar, büdcəmizdən maliyyələşmə təklif etmişəm, əgər onlar əraziləri boşaltsalar. Onlar deyiblər - yox. Mən Dağlıq Qarabağa muxtariyyət, dünyada mümkün olan ən yüksək muxtariyyət təklif etmişdim. Ermənistan dedi - yox. Onlar hər şeyə “yox” deyiblər. Beləliklə, indi baş verənlər onların günahıdır. Yeri gəlmişkən, onların Qarabağ klanı tərəfindən devrilmiş ilk prezidenti məqalə dərc etdirərək deyib ki, - bu, 1990-cı illərin ortalarında olub, - azərbaycanlılar indi bizə təklif etdiklərini bir daha təklif etməyəcəklər.

**- Siz indi Dağlıq Qarabağ üçün muxtariyyət statusunu qəbul edərsiniz?**

- İndi mən bu barədə danışmamağa üstünlük verirəm. Çünki indi yerində vəziyyət dəyişib. Lakin mən bunu dəfələrlə təklif etmişdim və ermənilər bunu rədd etdilər.

**- Beləliklə, Siz indi Dağlıq Qarabağ üçün nə istəyirsiniz?**

- Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. O, hər hansı başqa rayon kimi Azərbaycanın bir hissəsi olaraq qalacaq. Bu, yenə də Ermənistan hökumətinin necə davranacağından asılı olacaq. Onların məntiqli olması üçün hələ də çox gec deyil. Onların danışıqlar masasında daha çox şey əldə etmələri üçün hələ də çox gec deyil. Çünki biz digər şəhər və kəndlərə nəzarəti ələ keçirəndən sonra danışılacaq bir şey qalmayacaq. Beləliklə, onlar vaxt itirirlər. Əgər onlar məntiqli davransalar, biz bəzi özünüidarəetmə formaları üzərində işləyə bilərik. Biz bunun əleyhinə deyilik. Lakin onlar Azərbaycanın ərazi bütövlüyünü pozmamalıdır. Onlar İtaliya, İsveç və Finlandiya kimi Avropa ölkələrinin öz aralarında sahib olduğu ən yaxşı təcrübəyə əsaslanmalıdır. Niyə bundan fərqli olmalıdır? Sonra əlbəttə ki, regiona sülh gələcək. Zənnimcə, səmimi desək, Ermənistanın bu baş naziri ilə sülh üçün hər hansı imkanın olduğunu düşünmürəm. Ermənistanda hökumət dəyişməli, məntiqli insanlar, qan axıdılması və hərbi cinayətlərlə əlaqəsi olmayan insanlar gəlməlidirlər və sonra düşünürəm ki, birgə addımlarla biz Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan arasında Sovet İttifaqı dövründə mövcud olmuş əməkdaşlığın yeni formatını yarada bilərik. Bizim dost münasibətlərimiz var idi. Biz birlikdə yaşayırdıq.

**- Sülh naminə Sizin təklif edə biləcəyiniz hər hansı bir kompromis varmı? Sizin indi verməyə hazır olduğunuzu söyləyə biləcəyiniz nəsə varmı?**

- Digər tərəf kompromis arzulamadığı halda, mən kompromis təklif edə bilmərəm. Bilirsiniz, bu müddət ərzində Ermənistanın baş naziri də bir neçə dəfə xarici jurnalistlərə müsahibə verib. Rusiya televiziyasında bir veriliş var. Onlar eyni sualı mənə də, ona da verdilər. Məndən kompromis barədə soruşanda, mən sizə söylədiyimi dedim. Ondan 3 dəfə kompromis barədə soruşanda o dedi - Dağlıq Qarabağda yaşayan ermənilər üçün öz müqəddəratını təyinetmə. Amma bu, kompromis deyil. Onlar hansı kompromisə getməyə hazırdırlar? Yeri gəlmişkən, bu gün onların kompromisə getmək imkanları azalır. Çünki biz həmin əraziləri güc yolu ilə geri qaytarırıq. Bizim kompromis hələ də masanın üzərindədir. Lakin əgər biz bütün əraziləri geri qaytarsaq, 100 faiz zəmanət yoxdur ki, bu, masada olacaq. Onda biz nə barədə danışacağıq? Beləliklə, hazırda Ermənistanın baş naziri üçün, onun özü üçün ən yaxşısı odur ki, mənə qulaq assın, açıq şəkildə desin ki, “Biz Ağdamı, Kəlbəcəri və Laçını boşaldırıq”, biz dayanarıq, atəşkəs olar, əgər onlar onu yenidən pozmasalar və biz sizin qeyd etdiyiniz məsələlərə - status, muxtariyyət, mədəni muxtariyyət, icma və digərlərinə geri qayıdarıq. Biz ədalətli ola bilərik. Mən həmişə xalqımıza düz danışıram. Bu gün vəziyyət dəyişib. Ona görə də, mənim bir il bundan əvvəl, iki il bundan əvvəl onlara təklif etdiyim, ola bilsin ki, etibarsızdır. Lakin bu barədə danışmaq tezdir.

**- Sizin sülh yolu ilə həllə ümidiniz varmı?**

- Bəli, ümidim var. Çünki indi mənim ümidim bizim döyüş meydanındakı uğurumuza əsaslanır. Mənim ümidim Ermənistanın konstruktiv mövqeyinə əsaslanmır. Çünki bizim döyüş meydanında gördüklərimiz, Füzulidə, Cəbrayılda gördüklərimiz, biz gördük ki, onlar əraziləri boşaltmağı planlaşdırmırdılar. Onlar bizə yalan danışırdılar. Onlar Minsk qrupunun həmsədrlərinə yalan danışırdılar. Çünki onlar o istehkamlara o qədər vəsait yatırıblar ki, oraları heç vaxt boşaltmazdılar. Buna görə Füzuliyə nəzarəti ələ almaq bizim çox vaxtımızı apardı. Sonra biz Araz çayı boyu Ermənistanla dövlət sərhədinə doğru hərəkət edəndə bir neçə kənddə çox şiddətli toqquşmalar oldu. Bu müdafiəni yarmaq bir neçə gün vaxtımızı aldı.

**- Prezident Əliyev, icazənizlə mən Sizə BBC-nin Azərbaycan xidməti adından sual vermək istəyirəm. Əgər öz dilinizdə cavab versəniz, düşünürəm ki, onlar çox şad olarlar. Bu münaqişədən sonra burada, Azərbaycan xalqı üçün necə gələcək görürsünüz. Bəziləri deyər ki, bilirəm Siz razılaşmazsınız, lakin bəziləri deyər ki, bu, hələ də tam azadlığı, tam insan haqları olmayan cəmiyyətdir. Əgər münaqişə bitərsə, Siz sülhün dividend gətirəcəyini görürsünüzmü? Düşünürsünüzmü ki, cəmiyyət onları düşündürən Dağlıq Qarabağ məsələsini geridə qoyacaq? Burada hansı gələcəyi görürsünüz.**

- Mən hesab edirəm ki, ölkəmizin gələcəyi çox parlaq olacaq. Biz son illər ərzində çox böyük uğurlara imza atmışıq. Ölkəmizin həm siyasi, həm iqtisadi sahələrdə uğurları bu gün beynəlxalq təşkilatlar tərəfindən də qəbul edilir. Beynəlxalq arenada böyük uğurlar əldə edilib. Azərbaycan bu gün çox güclü bir ölkəyə çevrilib. Ölkə daxilindəki bütün məsələlər öz həllini tapır. Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək. İnsanlar, ilk növbədə, öz dədə-baba torpaqlarına qayıdacaqlar, öz yaxınlarının qəbirlərini ziyarət edə biləcəklər. Azərbaycan dövləti mütləq bu işlərdə onlara maksimum kömək göstərəcək. Biz işğaldan azad edilmiş torpaqları yenidən quracağıq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda, siyasi münasibətlər sahəsində hesab edirəm ki, müsbət meyillər daha da güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq. Azərbaycana olan hörmət daha da artacaq ki, biz güclü dövlət kimi öz ərazi bütövlüyümüzü, ədaləti və beynəlxalq hüququ bərpa edirik. Beləliklə, ölkəmizin gələcək inkişafı əminəm ki, çox uğurlu olacaq. Biz bu günə qədər qarşımızda duran bütün vəzifələrə uğurla çatmışıq. Bəyan etdiyim bütün hədəflərə çatmışıq. Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdirmişik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcəkdir.

# Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər



Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər.

AZƏRTAC xəbər verir ki, Rusiya **Prezidenti Vladimir PUTİN** dedi:

- Axşamınız xeyir, hörmətli İlham Heydər oğlu.

**Prezident İlham ƏLİYEV:** Axşamınız xeyir, Vladimir Vladimiroviç.

**Prezident Vladimir PUTİN:** Bu gün biz sizinlə Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin üçtərəfli bəyanatını imzalayırıq.

Mən çox ümid edirəm ki, bizim birgə bəyanatımızda şərh edilmiş bu qərar nəinki Ermənistan ilə Azərbaycan arasında çoxillik qarşıdurmaya son qoyacaq, bu torpaqlarda qan tökülməsinə son qoyacaq, həm də bizim bugünkü bəyanatda təsbit etdiyimiz razılaşmalara etibarlı nəzarət mexanizmi yaradacaq, ən başlıcası, uzunmüddətli tarixi perspektiv üçün, regionda münasibətlərin, ilk növbədə, həm Azərbaycan, həm də erməni xalqlarının mənafeyi naminə Azərbaycan Respublikası ilə Ermənistan arasında dostluq münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradacaq. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, hörmətli Vladimir Vladimiroviç. Mən öz tərəfimdən demək istərdim ki, bu gün Ermənistan ilə Azərbaycan arasında çoxillik münaqişənin nizamlanması işinə nöqtə qoyulur, Azərbaycan torpaqlarının işğalına son qoyulur və saatlarla, ümumiyyətlə desək, günlərlə vaxt sərf edib mühüm mövqeləri razılaşdırmaq yolu ilə nizamlamaya nail olduq ki, mənim fikrimcə, həm Azərbaycanın, həm də Ermənistanın və region ölkələrinin xalqlarının mənafelərinə cavab verir. Deməliyəm ki, indi bizim gördüyümüz münaqişənin hərbi-siyasi nizamlanması əminəm ki, regionumuzda uzunmüddətli sülhə, həmrəyliyə gətirib çıxaracaq, qarşıdurmaya və qan tökülməsinə son qoyacaq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bizim regionda, Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biridir və bu gün həmin münaqişənin sona yaxınlaşması tarixi hadisədir, ilk növbədə, torpaqları çoxillik işğaldan azad olan Azərbaycan xalqı üçün tarixi hadisədir. Bu həm də beynəlxalq hüququn norma və prinsiplərinin təntənəsi, BMT Təhlükəsizlik Şurasının, əfsuslar olsun ki, uzun müddət kağız üzərində qalmış qətnamələrinin implementasiyasıdır.



Vladimir Vladimiroviç, Sizə həm əvvəlki illərdə və xüsusən münaqişənin qaynar fazası dövründə fəal iştirakınıza görə təşəkkürümü bildirmək istərdim. Bu gün üç ölkə rəhbərinin bu sənədi imzalaması bu münaqişənin nizamlanmasında Rusiya Federasiyasının xüsusi roluna dəlalət edir. Əminəm ki, regionda gələcək fəaliyyətdə, o cümlədən münaqişənin nəticələrinin aradan qaldırılması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün Rusiya Federasiyasının rolu sanballı olacaq. Bu gün Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğana da münaqişənin siyasi yolla nizamlanması işində fəal iştirakına görə təşəkkürmü bildirmək istərdim. Bugünkü bəyanatın bəndlərindən biri Rusiya ilə Türkiyənin birgə sülhməramlı missiyasıdır. Beləliklə, biz regionda təkcə münaqişənin nizamlanması çərçivəsində deyil, həm də gələcək inkişaf üçün qarşılıqlı fəaliyyətin tamamilə yeni formatını yaradırıq. Buna görə də bəndlərdən biri də bütün nəqliyyat kommunikasiyalarının açılmasıdır. Bu, bütün region ölkələrinin xeyrinə olacaq. Ona görə də bu gün mən bu sənədi sevinc hissi ilə, qürur hissi ilə imzalayıram və bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını təbrik etmək istərdim. Sağ olun.

**Prezident Vladimir PUTİN:** Mənim fikrimcə, dediyim kimi, bu, həqiqətən həm erməni, həm də Azərbaycan xalqlarının xeyrinə və onların mənafeyi naminədir. Rusiya öz tərəfindən əlindən gələni edəcək ki, üç tərəf arasında danışıqların gedişində əldə edilmiş mövqelər, bu gün bizim imzaladığımız bəyanat hamısı icra olunsun. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, Vladimir Vladimiroviç. İmzalamaya başlayaq.

**Prezident Vladimir PUTİN:** Bəli.

Prezident İlham Əliyev və Prezident Vladimir Putin bəyanatı imzaladılar.

**Prezident Vladimir PUTİN:** Sizə təşəkkür edirəm, İlham Heydər oğlu.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, Vladimir Vladimiroviç.

**Prezident Vladimir PUTİN:** Bu ərazilərdə yaşayan bütün insanlara, bütün xalqlara ən xoş arzularımı bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizinlə biz xeyirxah iş gördük və bu regiondakı bütün ölkələr arasında münasibətlərin durmadan inkişafı, bu ərazilərdə yaşayan insanların, Azərbaycan və erməni xalqlarının rifahı üçün yaxşı baza şəraiti yaratdıq. Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Bir daha sağ olun, Vladimir Vladimiroviç. Sizin şəxsi iştirakınıza görə təşəkkür edirəm və əminəm ki, bu gün baş verənlər Rusiya, Azərbaycan və Ermənistan xalqlarının tarixində çox mühüm tarixi gün kimi qalacaq. Bir daha sağ olun.

**Prezident Vladimir PUTİN:** Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Prezident Vladimir PUTİN:** Xudahafiz.

**Prezident İlham ƏLİYEV:** Xudahafiz.

# Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı

*Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin aşağıdakıları bəyan edirik:*

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyətini Tərəflərdən hər hansı biri bəyan etməzsə, avtomatik olaraq növbəti 5 illik müddətlərə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir.

*10 noyabr 2020-ci il.*

*Azərbaycan Respublikasının Prezidenti*
*Ermənistan Respublikasının baş naziri*
*Rusiya Federasiyasının Prezidenti*

# “Qarabağ Azərbaycandır!” qələbəmizin rəmzidir

## Prezident İlham Əliyevin müraciəti



Əvvəli 1-ci səh.

*2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.*

*3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.*

*4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.*

*5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.*

*6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.*

*7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.*

*8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.*

*9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.*

*Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidenti”.*

❖ ❖ ❖

Əziz həmvətənlər, əziz bacılar və qardaşlar.

Bu bəyanatın tarixi əhəmiyyəti var. Bildirməliyəm ki, bu bəyanat videokonfrans şəklində imzalanmışdır və ilk mərhələdə 3 ölkənin başçısı bu videokonfrans vasitəsilə bəyanatı imzalamalı idilər. Ancaq son anda Ermənistan baş naziri bundan imtina edib. Bu, müəyyən dərəcədə başadüşüləndir. Çünki faktiki olaraq bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Ona görə bu bəyanatı videokonfrans formatında Rusiya Prezidenti və mən imzalamışıq və bu bəyanat rus dilində tərtib edilibdir. Mənim burada imzam var, bu sənəd bu imzalamadan sonra Rusiya səfirinə təqdim edilib və Rusiya və Ermənistan dövlət, hökumət başçıları bu sənədi imzalayacaqlar.

Bir daha demək istəyirəm ki, Ermənistan baş naziri Paşinyanın bu hərəkəti başadüşüləndir. Halbuki hesab edirəm ki, hər bir insan öz əməllərinə görə cavab verməlidir. Hər bir insan hətta onun üçün, ölkəsi üçün ən ağır, ən kritik vəziyyətdə özünə hörmət saxlamalıdır. Onsuz da Paşinyan bunu imzalayacaq. Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalayacaq. Öz xoşu ilə bunu imzalamır. Bunun - dəmir yumruğun hesabına imzalayır!

Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur.

Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub. Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır. Bu, böyük xoşbəxtlikdir. Mən fürsətdən istifadə edərək Ağdam, Laçın, Kəlbəcər rayonlarının sakinlərini, bütün Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Hər dəfə işğal altında olan hansısa rayon, şəhər işğaldan azad ediləndə mən o şəhər və rayonların sakinlərini təbrik edirdim, təsəvvür edirəm ki, onların həyatında bu nə deməkdir. Onların bəziləri, bəlkə də bir çoxları görəndə ki, uzun illər ərzində məsələ öz həllini tapmır artıq ümidlərini itirmişdilər. Mən son 17 il ərzində köçkünlərlə çoxsaylı görüşlərimdə, onlar üçün yeni evlərin təqdimat mərasimlərində görürdüm ki, ildən-ilə onların ümidləri azalır. Görürdüm, ürək ağrısı ilə bunu görürdüm. Görürdüm ki, artıq onların bəziləri ümidlərini itirib. Bəli, təşəkkürünü bildirirdilər, təbii ki, onlara yaxşı şərait yaradılırdı, onların problemləri həll olunurdu. Bilirsiniz ki, məcburi köçkünlər üçün Azərbaycanda görülən işlər heç bir başqa ölkədə görülmür. Dünyanın bir çox ölkələrində köçkünlər var, amma bizim köçkünlərimizin vəziyyəti o biri ölkələrdə yaşayan köçkünlərlə müqayisəedilməz dərəcədə müsbətdir. Amma onların əsas arzusu doğma torpaqlara qayıtmaqdır və məndən xahiş edirdilər, cənab Prezident, qaytar bizi. Mən də hər dəfə onlarla görüşəndə həm onlarda güclü iradə görürdüm, yenilməzlik görürdüm, dövlətə sədaqət görürdüm, eyni zamanda, onların gözlərində nisgil, həsrət görürdüm. Buna son qoyulub, əziz soydaşlarım, gözünüz aydın olsun, siz qayıdırsınız, biz qayıdırıq, Azərbaycan qayıdır! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir. Bundan da böyük xoşbəxtlik ola bilərmi!

Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. İndi bütün dünya görür ki, mənfur düşmən bu torpaqları hansı vəziyyətə salıb. Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq. Xocalı qurbanlarının da qisasını aldıq, şəhidlərimizin də qisasını aldıq.

Mən noyabrın 8-də Şuşanın azad edilməsi ilə əlaqədar xalqıma müjdə verərkən bildirmişdim ki, şəhidlərin ruhu qarşısında baş əyirəm. Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq. Onlar torpağımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq! Heç bir danışıqlar bizi maraqlandırmır. Siz də yaxşı bilirsiniz ki, son bir il ərzində mən danışıqlar haqqında, ümumiyyətlə, söhbət aparmıram. Xalqımı aldatmaq istəmirdim, heç vaxt aldatmamışam və aldatmayacağam. Azərbaycan xalqı bunu bilir. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi. Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!

Sentyabrın 27-də nə baş verib, onu tarixçilər deyəcək. Necə başlayıb, onu hesab edirəm ki, bir çoxları bilir. Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın.

Ardı 6-cı səh.

# “Qarabağ Azərbaycandır!” qələbəmizin rəmzidir

## Prezident İlham Əliyevin müraciəti

Əvvəli 5-ci səh.



Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq. Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik.

Onların demək olar ki, bütün texnikasını məhv etmişik, darmadağın etmişik. Bu 30 il ərzində qurulmuş istehkamları keçmişik, əsgərlərimiz aslan kimi keçiblər, əziblər düşməni keçiblər, əcəb də ediblər, öz torpağında. Biz beynəlxalq hüquqa əməl edirik, biz beynəlxalq hüquqa hörmət göstəririk. Biz mülki vətəndaşlardan intiqam almamışıq, heç vaxt almayacağıq və məhz buna görə mülki vətəndaşlar arasında düşmən tərəfdə itkilər çox azdır. Onlar nə etdilər? Onlar döyüş meydanında duruş gətirə bilmədilər, qaçdılar, ondan sonra ballistik raketlərlə mülki vətəndaşlara atəş açdılar. Bu, hərbi cinayətdir. Onlar bu hərbi cinayətə görə cavab verəcəklər. Gəncə şəhərini Ermənistandan ballistik raketlərlə vurmaq alçaqlıqdır, alçaq hərəkətdir, cinayətdir. Bərdəni kasetli bombalarla atəşə tutmaq hərbi cinayətdir. Mən demişəm Tərtər şəhəri, İkinci Dünya müharibəsi dövründə dağılmış Stalinqrad şəhərinə bənzəyir. Gündə, - özü də böyük şəhər deyil, - yüzlərlə mərmi düşürdü, amma bir nəfər də tərpənmədi. Amma ermənilər qaçıb getdilər. Onların “yenilməz” ordusu məhv oldu, fərarilik başladı, xunta başçısı Dağlıq Qarabağda əmr verdi ki, kim oradan qaçacaq, o, məsuliyyətə cəlb olunacaq. Bizdə BİR nəfər fərari oldumu? Olmadı! Bir nəfər də olmadı! Budur Azərbaycan xalqı! Mülki vətəndaşlar, evi dağılıb, malı batıb, yaxın insanını itirib, yenə də deyir ki, “Vətən sağ olsun”. Ancaq irəli, irəli! Mənə yazılan məktublarda deyilir, Ali Baş Komandan, irəli! Dəstəkləyirik səni, get irəli, dayanma və getmişəm, dayanmamışam.

Bu müharibə dövründə 30-a yaxın müsahibə vermişəm. Ömrümdə bəlkə də bu qədər müsahibə verməmişəm və bəziləri deyirlər ki, İlham Əliyev nə üçün müsahibə vermir. Hesab edirdim ki, mən öz mövqeyimi ifadə etmək üçün kifayət qədər imkanlara malikəm, tez-tez bütün məsələlərlə bağlı öz fikirlərimi bildirirəm. Mənim bütün fəaliyyətim şəffafdır, keçirdiyim bütün iclaslar ictimaiyyətə təqdim edilir. Lüzum bilmirdim onda. Amma lazım olan vaxtda 30-a yaxın müsahibə vermişəm və o müsahibələrdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. Demişdim ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb. İntiqamımızı düşməndən aldıq, işğalçıdan aldıq. Mülki vətəndaşlarla bizim işimiz olmayıb və olmayacaq. Düşmənin məskunlaşdığı, gizləndiyi şəhərlərdə böyük dağıntılar yoxdur. Çünki biz mülki obyektlərə atəş açmamışıq. Bax, bizim fərqimiz bundan ibarətdir.

Mən bu müharibə başlayandan sonra demişdim ki, bir çoxları, demək olar, bu məsələ ilə məşğul olan siyasətçilərin hamısı deyirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən nə deyirdim? Deyirdim ki, var! Məni tənqid edirdilər ki, İlham Əliyev nə danışır? Yoxdur hərbi həlli. Dedim yaxşı yoxdursa, onda bunu sülh yolu ilə həll edin. Sizin əlinizdə bu imkanlar var. Siz böyük dövlətlərsiniz, böyük nüfuzunuz var, böyük imkanlarınız var. Nədir ki, sizin qabağınızda Ermənistan, nədir ki, ona təsir edə bilmirsiniz? Bəlkə təsir etmək istəmirsiniz? Yox, deyirdilər ki, olmaz müharibə aparmaq, sülh yolu ilə. Sülh yolu ilə 1 il, 2 il, daha 30 il sülh yolu ilə? Bizim başımızı nə qədər aldatmaq olar? Amma biz sübut etdik ki hərbi həlli var. Və mən demişdim ki, mən istəyirəm və Paşinyan, deyirəm sənə, bəyanat ver, öhdəlik götür, qrafik ver, cədvəl ver. Müharibənin ilk günündən mən bunu deyirdim. Hər kəs də bunu görə bilər. Müsahibələrimdə, xalqa müraciətlərimdə açıq demişəm, qrafik ver, cədvəl ver, rədd ol, çıx get, mən dayanıram. Yoxsa oradan deyirlər dayanın, buradan deyirlər dayanın. Yaxşı, bizim torpaqlarımızı işğal edəndə niyə bunlara “dayanın!” deyən olmadı? Bizim torpağımızı 30 il əsarət altında saxlayan Ermənistana nə üçün “buradan çıx get!” deyən olmadı! Bu, nədir? Yaxşı, biz indi öz gücümüzə güvənərək bu torpaqları şəhid verə-verə, qan tökə-tökə azad edirik, bizə “dayanın” deyirsən, ona de ki, çıx. Demir. Bizə deyir dayan. Dedim dayanmayacağam mən. Heç kim məni dayandıra bilməz və dedim tələb edirəm səndən Paşinyan, şəxsən özün, sənin xarici işlər nazirin, nə bilim o biri, bu biri yox, şəxsən özün öhdəlik götürməlisən, tarix verməlisən nə vaxt rədd olursan bizim torpaqlarımızdan. Bax, bu bəyanatda o öhdəlik var. Məcbur edirik onu, məcbur etdik, zorla məcbur etdik, başına vura-vura məcbur etdik, bütün bəd əməllərinə görə, o donuzları bizim məscidlərimizdə saxladığına görə. Bizim məscidlərimizdə donuz saxlayan özü donuzdur. İndi bu sənəddə öhdəlik var. Dekabrın 1-nə qədər rədd olacaq qalan işğal edilmiş torpaqlardan. Ona görə məsələnin hərbi yolu var. Amma mən deyirdim, istəyirəm ki, bu hərbi mərhələ də dayansın, keçək siyasi mərhələyə. Nə oldu? Mən deyən oldu. Bax, bu gün mən deyən oldu. Hərbi mərhələ başa çatır, keçirik siyasi məsələyə. Demək olar ki, bizə maksimum sərf edən sənəd imzalandı. Paşinyan onu imzaladı. Başqa yolu yox idi. Əslində, bu, məğlubiyyətin etirafıdır. Bu, hərbi kapitulyasiyadır. Prinsip etibarilə mən tələb edə bilərdim ki, gəlsin otursun orada, aşağıda, bax orada imzalasın onu. Amma mən belə adam deyiləm. Mən nə üçün kimisə alçaldım. O onsuz da özünü alçaldıb. Bu rəzil duruma özü-özünü salıb. Gərək orada qarnını qabağa verib, sərxoş vəziyyətdə Cıdır düzündə rəqs edəndə bu günü fikirləşərdi ki, gün gələcək hesabını verəcəksən, verirsən. Bax, belə. Heç kim bizimlə zarafat edə bilməz. Heç kim Azərbaycan xalqının səbri ilə oynaya bilməz. Heç kim bizi təhqir edə bilməz. Edərsən, dərsini alarsan. Necə ki, dərsini vermişik.

Ona görə məsələnin həlli artıq təmin edilib. Əlbəttə, əgər Ermənistan atəşkəsə əməl etsə, - mən artıq bütün əmrlərimi vermişəm, - komandanlıqlara əmrimi vermişəm, biz dayanırıq. Biz imzamıza hörmətlə yanaşırıq. Qarşı tərəf də dayanmalıdır. Çünki dayanmasa, biz də dayanmayacağıq.

İndi beynəlxalq müşahidəçilər yaxşı bilirlər ki, kim atəşkəsi pozub. Birinci dəfə kim pozub Gəncəni ballistik raketlə bombalayanda, ikinci dəfə kim pozub beş dəqiqə atəşkəs vaxtından keçməmiş və üçüncü dəfə Bərdəni kasetli raketlərlə vurmaqla. İndi bu dəfə də pozsa, artıq mən hesab edirəm ki, özü lap peşman olacaq. Ona görə biz istədiyimizə nail ola bilmişik. Biz düşməni məcbur edə bilmişik. Mən faktiki olaraq onlara ultimatum vermişəm. Demişəm ki, çıxmalısan, çıxmasan sona qədər gedəcəyəm. Sona qədər! Ayın 8-də Şəhidlər xiyabanında demişəm ki, sona qədər gedəcəyəm və heç bir qüvvə məni dayandıra bilməz.

Biz bu qələbəni döyüş meydanında qazandıq. 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Şuşa şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi, digər qəsəbələr döyüş meydanında azad edildi.

Bu qələbələr düşməni məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonları bizə siyasi yollarla qayıdır. Amma burada Ermənistan tərəfinin xoş niyyətini axtarmaq yersizdir. Onlarda xoş niyyət deyilən anlayış bütövlükdə yoxdur. Sadəcə olaraq, məcbur olub. Çünki bilirdi ki, bu sənədə imza atmasa, özümüz alacağıq bu torpaqları. Hər kəs bunu bilirdi. Mən demişdim ki, qan tökmək istəmirəm, müharibəni dayandırmalıyıq, rədd olsun bizim torpaqlarımızdan! Belə də oldu.

Mən bir məsələni də qeyd etmək istərdim. Mən əziz xalqımı sənədin mətni ilə tanış etdim. Burada yeni nəzarət mexanizmi tətbiq edilir. Bəyanatın beşinci bəndində yazılıb: “Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır”. Mən deyə bilərəm ki, bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Beləliklə, Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaqdır.

Mən videokonfrans formatında imzalama mərasimindəki çıxışımda həm Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın, həm Rusiya Prezidenti Vladimir Putinın səylərini yüksək qiymətləndirdim. Çünki onlar doğrudan da bu 44-45 gün ərzində böyük səylər göstərmişlər ki, məsələ sülh yolu ilə həll olunsun. Eyni zamanda mən çox şadam ki, artıq münaqişənin dayandırılmasında bu iki lider öz müsbət rolunu oynayıb. Hesab edirəm ki, bu, eyni zamanda, bölgədə gələcək əməkdaşlıq formatını da böyük dərəcədə müəyyən edir. Çünki Türkiyə ilə Rusiya arasındakı əlaqələr bu gün tarixə baxsaq, hesab edirəm ki, ən yüksək səviyyədədir. Hər iki ölkə bizim üçün dost, qonşu ölkədir. Beləliklə, hesab edirəm ki, gələcəkdə bu əməkdaşlıq formatı daha da çoxşaxəli ola bilər.

Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi.

Ona görə bu bəndi xüsusilə qeyd etmək istərdim və əziz naxçıvanlıları da bu hadisə münasibətilə təbrik etmək istərdim. Bildirməliyəm ki, naxçıvanlılar da ikinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi. Bütün bölgələrdə hər bir vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinib. Bütün bölgələrdə biz bunu gördük. Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur. Çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, azərbaycanlılar kimi etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar, sıxışdırırlar, sıxışdırırlar. Amma bizim üstünlüyümüz bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir.

Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur! Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar, dedilər ki, yox, bu, “müstəqil dövlətdir”. Bunlar uzun illərdir “müstəqil dövlət” kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəlmə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu “nə oldu, Paşinyan” deyəsən, bir çox illər ərzində dillərdə qalacaq. Nə oldu, Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə bu sənədin çox böyük mənası var. Əminəm ki, Azərbaycan xalqı bu sənədə böyük diqqət göstərərək onu dəqiq, böyük diqqətlə oxuyacaq və görəcək ki, biz nə qədər böyük siyasi qələbə qazanmışıq. Bu siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır. Əlbəttə ki, son illər ərzində ölkəmizdə aparılan işlər, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz - bütün bunlar, ordu quruculuğu təbii ki, bu qələbəmizi şərtləndirdi. Mən bu günlərdə bir şeyə də fikir verdim. Hətta fərqli siyasi baxışlara malik olan insanlar, bizim işimizə tənqidi yanaşan insanlar, hətta bir çox hallarda əsassız tənqidlər ifadə edən insanlar bu dövrdə hesab edirəm ki, yüksək şüur nümunəsi göstərdilər. Mən həmişə deyirdim ki, siyasi müstəvidə fərqli baxışlar var, olmalıdır, bu, normaldır. Müxalifət olmalıdır, bu, normaldır. Hər bir demokratik ölkədə olduğu kimi, bizdə də əlbəttə ki, bütün bu azadlıqlar var. Amma bir şey olmamalıdır - dövlətə müxalifətdə olmaq olmaz, dövlətçiliyə müxalifətdə olmaq olmaz. “İqtidara, dövlətə nə qədər pisdir, mənim üçün bir o qədər yaxşıdır” fikri ilə yaşamaq olmaz. Mən deyə bilərəm, bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir. Çünki biz hamımız istəyirik ki, Azərbaycan inkişaf etsin, hamımız istəyirik ki, daha güclü ölkə olsun. Gücümüzü göstərmişik, döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda. Müstəqilliyimizi göstərmişik. İndi gün gələcək müharibə dövründə ictimaiyyətə açıqlana bilinməyən bəzi məqamları yəqin ki, açıqlayacaqlar. Ola bilsin ki, mən də hansısa məsələnin üstündən o pərdəni götürə bilərəm. Onda hər kəs görəcək ki, biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Demək olar ki, gündəlik rejimdə deyirdilər, dayanın, dayanın, dayanın, dayanın. Amma biz qabağa getdik. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq. Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla! Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!

“Qarabağ Azərbaycandır və nida” ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

---

*Prezident İlham ƏLİYEV:*

### “Müzəffər Azərbaycan Ordusu daha 23 kəndi işğaldan azad edib”




Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün “Twitter” hesabında bildirib.

---

*Prezident İlham ƏLİYEV:*

### “Müzəffər Azərbaycan Ordusu daha 48 kəndi, 1 qəsəbəni və 8 strateji yüksəkliyi işğaldan azad edib”




Müzəffər Azərbaycan Ordusu Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün “Twitter” hesabında bildirib.

---

### Ali Baş Komandan Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini təbrik etdi

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev birlik komandiri, general-leytenant Hikmət Mirzəyevə zəng edib.

Ali Baş Komandan Şuşa şəhərinin işğalçılardan azad edilməsi münasibətilə Hikmət Mirzəyevi təbrik edib. Dövlət başçısı Şuşanın azad edilməsində qəhrəmancasına və rəşadətlə iştirak etmiş hərbi qulluqçulara, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətinə təbriklərini çatdırıb.

General-leytenant Hikmət Mirzəyev şəxsi heyət adından Ali Baş Komandana dərin təşəkkürünü ifadə edib. O, Ali Baş Komandanın əmrlərini yerinə yetirmək və etimadını doğrultmaq üçün şəxsi heyətin hər zaman hazır olduğunu məruzə edib.

**Prezidentin Mətbuat Xidməti**

---

*Şuşa zəfərindən dərhal sonra Müzəffər Ali Baş Komandandan yeni böyük müjdə:*

### 71 kənd, 1 qəsəbə, 8 strateji yüksəklik azad olundu

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa zəfərindən dərhal sonra xalqımıza yeni böyük müjdə verdi. Belə ki, noyabrın 9-da 71 kənd, 1 qəsəbə, 8 strateji yüksəklik işğaldan azad olunub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı rəsmi “Twitter” hesabında Azərbaycan Ordusunun Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərini işğaldan azad etdiyini bildirib.

Bu gün Prezident İlham Əliyev həmçinin Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərinin işğaldan azad olunduğunu elan edib.

---

### Azərbaycanın xarici işlər və müdafiə nazirlərinin müavinləri Rusiyanın ölkəmizdəki səfirliyində olub, başsağlığı veriblər

Noyabrın 10-da Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı, general-leytenant Ramiz Tahirov Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinə gedərək noyabrın 9-da Ermənistan-Azərbaycan sərhədi yaxınlığında Rusiya Federasiyasına məxsus “Mi-24” hərbi helikopterinin vurulması nəticəsində yaşanan faciəvi hadisə ilə bağlı başsağlığı veriblər.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib.

## İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub



Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.

Dövlət başçıları Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik ediblər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığını bildirib.

Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin ölkəsinin dəstəyinə verdiyi yüksək qiymətə görə təşəkkür edib.

Azərbaycan və Türkiyə prezidentləri dost və qardaş ölkələrimiz və xalqlarımızın bundan sonra da bir-birinin yanında olacağını bildiriblər.

Telefon söhbəti zamanı atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya sülhməramlı mərkəzinin yaradılması yüksək qiymətləndirilib, bu mərkəzin regionda uzunmüddətli sülhün təmin edilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

***Prezidentin Mətbuat Xidməti***

## İlham Əliyev Vladimir Putinə telefonla zəng edib



Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Azərbaycan Prezidenti Rusiya Hərbi Hava Qüvvələrinin helikopterinin Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan sahəsində vurulması ilə bağlı faciə ilə əlaqədar başsağlığı verib.

Prezident İlham Əliyev bu faciəli təsadüfə görə üzrxahlıq edərək bildirib ki, günün qaranlıq vaxtında həmin helikopter Ermənistan hərbi hava qüvvələrinin helikopteri hesab edilib.

Dövlətimizin başçısı həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verilməsini xahiş edib, xəsarət almış pilotun tezliklə sağalmasını arzu edib.

Prezident İlham Əliyev Azərbaycan tərəfinin həlak olmuş və xəsarət almış pilotların ailələrinə kompensasiya ödəməyə hazır olduğunu bildirib.

Prezident İlham Əliyev Prezident Vladimir Putinə bildirib ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bu fakt üzrə cinayət işi qaldırılıb, təhqiqat aparılır. Təqsirkarlar cəzalandırılacaq və bu barədə Rusiya tərəfi məlumatlandırılacaq.

Prezident Vladimir Putin telefon zənginə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib, belə insidentlərin yolverilməz olduğunu qeyd edib.

Tərəflər gələcəkdə belə hallara yol verilməyəcəyinə əmin olduqlarını bildiriblər.

***Prezidentin Mətbuat Xidməti***

## *İlham ƏLİYEV:* "Bu müddət ərzində bir daha bütün dünya gördü ki, birliyimiz sarsılmazdır və əbədidir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunu və Milli Müdafiə naziri Hulusi Akarı qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, əziz qonaqlar.

Bildiyiniz kimi, bu gün xalqımız üçün çox əziz bir gündür, tarixi bir gündür. Bu gün Şuşa şəhərinin azad edilməsi günüdür. Belə bir gündə bizimlə bərabər olmağınız xüsusi önəm daşıyır.





Bu, növbəti qardaşlıq nümunəsidir, növbəti qardaşlıq təzahürüdür. Hər zaman olduğu kimi, yaxşı günlərdə də, ağır günlərdə də biz bir yerdəyik. Bu hadisə bir daha onu göstərir ki, bizim xalqlarımız bir-birinə nə qədər yaxındır, Türkiyə və Azərbaycan bir-birinə nə qədər doğmadır.

Türkiyənin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan son bir ay ərzində, ondan da çox bir müddət ərzində Azərbaycana dəfələrlə öz dəstəyini göstərmişdir, öz açıq ifadələri ilə siyasi, mənəvi dəstək verməklə bizə əlavə güc vermişdir. Eyni zamanda siz - hörmətli Müdafiə naziri, bizim digər qardaşlarımız dəfələrlə Azərbaycanın yanında olduğunuzu qeyd edirdiniz. Qeyd edirdiniz ki, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu açıqlamalar, bu siyasi və mənəvi dəstək bu münaqişənin həlli üçün də önəmli rol oynamışdır.

Şəhərlərimizin, kəndlərimizin işğaldan azad edilməsi və bu gün Şuşa şəhərinin, qədim Azərbaycan şəhərinin azad edilməsi, əlbəttə ki, böyük tarixi hadisədir. Bu hadisəni bizimlə birlikdə belə canlı şəkildə qeyd etmək üçün Azərbaycana gəlməyiniz bizi çox məmnun edir.

Bir daha sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Bu müddət ərzində bir daha bütün dünya, bizi istəyənlər və istəməyənlər gördülər ki, birliyimiz sarsılmazdır və əbədidir. Bu, belə də davam edəcək. Bir daha sizə təşəkkürümü bildirirəm, sizə "Xoş gəlmisiniz!" deyirəm.

Türkiyənin Xarici İşlər naziri **Mövlud ÇAVUŞOĞLU** dedi:

- Bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik, cənab Prezident. Biz hər zaman Bakıda və Sizin qəbulunuzda olmaqdan böyük məmnunluq hissi keçiririk. Amma bu gün xüsusilə çox məmnunuq. Çünki qəhrəman Azərbaycan Ordusu Ali Baş Komandan, zati-alinizin rəhbərliyi ilə qədim Şuşa şəhərini işğalçı Ermənistandan geri alıb. Beləliklə, qəhrəman Azərbaycan Ordusunu, Ali Baş Komandan olaraq Sizi və bu çətin günlərdə, xüsusilə də Ermənistanın atdığı raketlərə baxmayaraq, ayaqda dayanan, Ali Baş Komandanının və onun qəhrəman ordusunun arxasında dayanan qardaş Azərbaycan xalqını canıqəlbdən təbrik edirik.

Hörmətli Prezidentimizin də salamlarını xüsusilə çatdırmaq istəyirəm. Belə bir əlamətdar gündə - Bayraq Günündə burada, Bakıda olmaqdan xüsusilə məmnunuq.

Bizi qəbul etdiyiniz üçün təşəkkür edirik. Bir daha təbrik edirik, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Əziz qardaşıma, hörmətli Prezidentə mənim də salamlarımı çatdırın. Bildiyiniz kimi, biz daim təmasdayıq, dünən də telefonla söhbət etdik. Yəni daim əlaqədəyik və bu şəxsi əlaqələr, bizim aramızdakı bu dostluq, qardaşlıq əlaqələri ölkələrimiz arasındakı əlaqələrə də müsbət təsir göstərir. Bir daha təşəkkür edirəm.

## Azərbaycan ilə Amerika arasında siyasi, təhlükəsizlik, enerji, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurulmuşdur

### Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Cozef Baydenə

Hörmətli cənab Bayden!

Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında siyasi, təhlükəsizlik, enerji, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurulmuşdur. Ölkələrimiz beynəlxalq sülh və təhlükəsizliyin gücləndirilməsi, terrorizmə və transmilli cinayətkarlığa qarşı mübarizədə və NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyası çərçivəsində əməkdaşlıq edirlər.

İnanırıq ki, Sizin prezidentliyiniz dövründə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında dostluq və əməkdaşlıq münasibətləri daha da möhkəmlənəcəkdir.

30 ilə yaxın dövr ərzində Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal altında saxlayan Ermənistan bu ilin 27 sentyabr tarixindən başlayaraq Azərbaycan Ordusunun mövqelərini, dinc sakinləri və obyektləri iriçaplı silahlardan atəşə tutmaqla ölkəmizə qarşı növbəti hərbi təcavüz törətmişdir.

Ermənistan tərəfindən Azərbaycanın dinc əhalisinin qəsdən və məqsədyönlü şəkildə atəşə tutulması nəticəsində aralarında çoxlu sayda azyaşlı olmaqla 93 mülki şəxs qətlə yetirilmiş, 400-dən çoxu yaralanmış, mülki obyektlər dağıdılmışdır. Digər ölkələrdən minlərlə insan Ermənistana gətirilmiş və bu ölkənin silahlı qüvvələrində muzdlu kimi xidmətə cəlb edilmişdir. Ermənistan ABŞ-ın da iştirakı ilə ərsəyə gəlmiş mühüm regional enerji və nəqliyyat infrastrukturlarını hədəfə almışdır.

Azərbaycan ABŞ və ATƏT-in Minsk qrupunun digər həmsədr ölkələrindən münaqişənin ədalətli həlli istiqamətində səylərini daha da artıracağını gözləyir. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq öz silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxarmaqla bağlı dəqiq vaxt cədvəli təqdim etməlidir. Azərbaycan münaqişənin həlli üzrə mahiyyətli danışıqlara bu əsasda hazır olduğunu dəfələrlə bəyan etmişdir.

Azərbaycanın indiyə qədər işğaldan azad etdiyi və hələ də işğal altında qalan ərazilərində mülki infrastruktur Ermənistan tərəfindən tamamilə məhv edilmişdir. Biz həmin ərazilərdə genişmiqyaslı quruculuq işləri həyata keçirəcək, bütün tarixi, dini və mədəni abidələri bərpa edəcəyik.

Azərbaycan Dağlıq Qarabağda azərbaycanlı və erməni icmalarının sülh, təhlükəsizlik və qarşılıqlı hörmət əsasında birgə yaşayışını təmin etməyə hazırdır.

Bir daha Sizə səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, dost Amerika xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 noyabr 2020-ci il*

## "Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu, milli müdafiə naziri Hulusi Akarı və Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidanı qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Əziz dostlar, hörmətli qonaqlar, Qələbədən sonra ilk görüşümdür, təbii ki, qardaşlarımla görüşdür. Bu gün səhər əziz Qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğanla telefonla danışdıq, söhbət etdik, bu böyük qələbə münasibətilə bir-birimizi təbrik etdik. Eyni zamanda, gələcək işlər haqqında fikir mübadiləsi aparıldı. Əziz Qardaşıma və bütün Türkiyə xalqına bu dəstəyə, həmrəyliyə görə öz adımdan, bütün Azərbaycan xalqı adından bir daha dərin təşəkkürümü bildirdim. Bütün bu 44 gün ərzində qardaş Türkiyənin dəstəyini biz hər an hiss edirdik, bütün Azərbaycan xalqı hiss edirdi. Dünən artıq bəyanatın imzalanmasından sonra Türkiyə televiziyalarında müşahidə olunan mənzərə çox ürəkaçan idi. Yəni, bizim türk qardaşlarımız bu Qələbəyə öz qələbələri kimi sevinirdilər. Onsuz da bu, belədir. Bu, bizim müştərək qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə bəlkə də ən yüksək səviyyədədir. Bütün bu günlər ərzində Türkiyənin vəzifəli şəxsləri, Məclis üzvləri, nazirlər, ictimai fəallar, mətbuat, geniş ictimaiyyət, bizim bütün qardaşlarımız bizə çox böyük dəstək oldular. Bu, bizə əlavə güc verdi, ruh yüksəkliyimizi daha da artırdı. Biz bu gün, əlbəttə, çox xoşbəxtik ki, nəhayət, 30 ildən sonra öz dədə-baba torpaqlarımızı işğaldan azad etdik.

Bu gün əziz Qardaşımla söhbət əsnasında, eyni zamanda, Türkiyə-Rusiya birgə atəşkəsə nəzarət mərkəzinin fəaliyyəti ilə də bağlı fikir mübadiləsi apardıq. Hesab edirəm ki, bu da çox önəmli addımdır. Bu, bölgədə iş birliyinin yeni formatıdır. Biz bunu hər zaman istəyirdik ki, Türkiyə və Rusiya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində bərabər səviyyədə rol alsınlar və bu gün biz buna nail olduq. Bu mərkəzin gələcək fəaliyyəti ilə əlaqədar bu gün sizinlə də danışacağıq və rusiyalı həmkarlarımızla danışacağıq ki, qısa müddət ərzində bu mərkəz yaradılsın. Çünki erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılmasının artıq cədvəli var. Bu ayın sonuna qədər onlar bütün torpaqlardan, hələ də işğal altında olan torpaqlardan çəkilməlidirlər. Beləliklə, bu mərkəzin qısa bir zaman içərisində yaradılmasında çox böyük fayda var. Bir daha xoş gəlmisiniz, öz doğma evinizə xoş gəlmisiniz.

Türkiyənin xarici işlər naziri **Mövlud ÇAVUŞOĞLU** dedi:

- Çox təşəkkür edirik, cənab Prezidentim. Biz də öz doğma evimizdə bir daha olmaqdan çox məmnunuq. Bizi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirik.

Bu gün Qardaşınız, Prezidentimiz Rəcəb Tayyib Ərdoğanla telefon danışığınız olub. Amma təyyarəyə minməzdən əvvəl mənə yenidən zəng etdi, Sizə salamlarını və təbriklərini çatdırmağımı bir daha söylədi.

Biz də bir daha Sizi qələbəniz, - Sizin qələbəniz, bizim qələbəmizdir, - bu böyük zəfər münasibətilə təbrik edirik. Ali Baş Komandan olaraq, Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusu nə edə bildiyini dosta, düşmənə nümayiş etdirdi, eyni zamanda, türkün gücünü də göstərdi.

Bu prosesdə Sizin rəhbərliyinizlə qardaş Azərbaycan həm döyüş meydanında, həm də masada mövcudluğunu da göstərdi. Döyüş meydanında qələbələrinizə baxmayaraq, sülh yolu ilə, atəşkəs yolu ilə də bu münaqişənin həlli üçün böyük bir liderlik göstərdiniz. Amma təəssüf ki, Ermənistan bu imkanlardan istifadə etmədi. Ümid edirəm ki, bu dəfə bundan dərs alarlar. Döyüş meydanındakı qələbələrlə yanaşı, Azərbaycanın digər torpaqları qısamüddətli bir təqvimlə yenidən, inşallah, Can Azərbaycana qaytarılacaq.

Biz Sizin həm döyüş meydanındakı, həm də diplomatik müstəvidəki uğurlarınızdan qürur duyuruq. Türkiyə olaraq hər zaman dedik ki, başda hörmətli Prezidentimiz olmaqla, həm döyüş meydanında, həm də masada Can Azərbaycanın yanındayıq.

Bundan sonrakı prosesdə Sizin də dediyiniz kimi, birgə nəzarət mərkəzinin yaradılması daxil olmaqla, atacağımız addımları da birlikdə müzakirə edəcəyik, dəyərləndirəcəyik.

Sizin göstəriş və tapşırıqlarınıza uyğun olaraq biz də həmkarlarımızla birlikdə lazımi işləri görəcəyik. Bu məqsədlə bu gün qəbulunuza, tapşırıqlarınızı almağa gəldik.

Bir daha təbrik edirik. Bu gün səhər televizoru açdıq, Azərbaycanda insanlar küçələrdə idi, Türkiyədə də xalqımız eyni sevinci yaşadı. Buna görə də təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, təşəkkür edirəm.

Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident, əziz qardaşım!

Qardaş Azərbaycanın illərdir Ermənistanın işğalı altında qalan torpaqlarını azad etməsi mənə ən gözəl hədiyyə oldu. Azərbaycan xalqının və ordusunun göstərdiyi qəhrəmanlıq sayəsində cəbhədə qazandığınız uğurlardan böyük məmnunluq və qürur hissi duyuram.

Zati-alinizin müdrik rəhbərliyi ilə Dağlıq Qarabağın işğaldan azad edilməsinin və bu həsrətin sona çatmasının yaxın olduğuna inamım qətidir.

Əziz qardaşım, Sizə və ailənizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına rifah və əmin-amanlıq arzularımı çatdırır, Ermənistanla müharibədə şəhid olan azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət, yaralananlara isə şəfa diləyirəm.

*Hörmətlə,*

***Abdullah GÜL,***
***Türkiyənin 11-ci Prezidenti***

❖ ❖ ❖

Hörmətli Prezident Əliyev!

Şuşa şəhərinin azad olunması münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirəm. Ümidvaram ki, tezliklə Qarabağın bütün ərazisi işğaldan azad olunacaqdır.

*Hörmətlə,*

***Vayra Vike-FREYBERQA,***
***1999-2007-ci illərdə Latviyanın Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***İmants FREYBERQS***

❖ ❖ ❖

Hörmətli Prezident Əliyev!

Şuşa şəhərinin azad olunması Qarabağın işğaldan tam azad edilməsi ilə nəticələnəcək olduqca mühüm bir addımdır. Bütün dualarımız Azərbaycandakı bacı və qardaşlarımızladır.

*Hörmətlə,*

***Comart OTORBAYEV,***
***Qırğızıstanın sabiq Baş naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Biz - Qırğızıstanın Xalq şairi Omor Sultanov, şairələr Aida Egemverdiyeva və Altınay Temirova Azərbaycan dövləti və xalqı ilə həmrəy olduğumuzu bildirir, Sizin ədalətli mövqeyinizi səmimi qəlbdən dəstəkləyirik.

Azərbaycan və Qırğızıstan qədim tarixi bağları, eyni kökləri, ənənələri və mədəniyyəti olan qardaş ölkələrdir. Bunun sayəsində bizim çoxillik əməkdaşlığımız uğurla inkişaf edir. Xüsusən də mədəniyyət sahəsindəki əlaqələrimizdə ədəbiyyat əhəmiyyətli rol oynayır.

Bu baxımdan qeyd etmək lazımdır ki, bütün Azərbaycan xalqına "Manas" dastanı yaxşı tanışdır. Azərbaycanda dahi Qırğız yazıçısı Çingiz Aytmatovun yaradıcılığını yüksək dəyərləndirirlər, onun əsərləri çox populyardır. Öz növbəsində Qırğızıstanda da klassik və müasir Azərbaycan ədəbiyyatının gözəl nümunələri eyni maraqla öyrənilir.

Biz Azərbaycan Respublikasının Qırğız Respublikasındakı səfirliyi ilə sıx əməkdaşlıq edirik və bir sıra birgə tədbirlər keçiririk.

Həmçinin Azərbaycan yazıçılarının əsərlərini qırğız dilinə tərcümə edərək, Qırğızıstan oxucularını Azərbaycanın zəngin mədəniyyəti və ədəbiyyatı ilə tanış etmişik. Qırğız xalqı beynəlxalq arenada yüksək nüfuz sahibi olan qardaş Azərbaycanın nailiyyətlərini hər zaman sevinclə qarşılayır. Biz, həmçinin Sizin xalqınızın uzun illərdən bəri tarixi ədaləti və öz ərazi bütövlüyünü bərpa etməklə bağlı ürək ağrısını yaxşı anlayırıq. Azərbaycan xalqının dərdi bizim dərdimizdir.

Bu günlərdə Azərbaycan Ordusu bütün dünyaya əsl vətənpərvərlik, cəsarət və peşəkarlıq nümunəsi göstərir. Ümid edirik ki, tezliklə Azərbaycanın işğal edilmiş bütün əraziləri qaytarılacaq, erməni tərəfi etiraf edəcək ki, Qarabağ Azərbaycandır!

Müharibə həmişə xalqa böyük itkilər, bəlalar gətirir, xüsusən əgər düşmən müharibə aparmağın bəşər tarixi boyunca formalaşmış çoxillik qaydalarını pozursa. Belə qaydaların ən başlıcası dinc əhalini qırmamaqdır.

Hərbi əməliyyatlardan kənar bölgələrdə - Bərdə, Gəncə, Tərtər, Ağcabədi, Mingəçevir kimi şəhərlərdə yaşayan dinc əhalinin raket atəşinə tutulması, uşaqlara, analara aman verilməməsi planlaşdırılmış müharibə cinayətindən başqa bir şey deyildir. Biz bu faciənin günahkarlarını pisləyirik və Sizinlə bərabər kədərlənirik.

Çox hörmətli Prezident, Sizə möhkəm cansağlığı, haqq işinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə daimi sülh, əmin-amanlıq və firavanlıq arzulayırıq.

*Dərin hörmətlə,*

***Qırğızıstanın Xalq şairi Omor SULTANOV,***
***şairələr Aida EGEMVERDİYEVA və Altınay TEMİROVA***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə 2020-ci il 10 noyabr tarixində keçirilmiş "Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü" mövzusunda onlayn Beynəlxalq Konfransın iştirakçıları olaraq zati-alinizi üçqat bayram sevinci -Şuşanın işğaldan azad olunması, Azərbaycanın Dövlət Bayrağı Günü və Qarabağ savaşının böyük qalibiyyətlə zəfəri münasibətilə ürəkdən təbrik etməkdən şərəf duyuruq. Azərbaycan Respublikasının üçrəngli bayrağının Azərbaycanın işğaldan azad olunmuş ərazilərində dalğalanması bütün müsəlman aləmi üçün qürur və fəxarət mənbəyidir.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və ona üzv dövlətlər hər zaman Azərbaycanın haqlı mübarizəsinə dəstək ifadə etmişlər və bu münasibət İƏT-in qərar və bəyanatlarında öz əksini tapmışdır. İslam dünyasının ayrılmaz parçası olan müstəqil Azərbaycanın üçrəngli dövlət bayrağının Azərbaycan torpağı olan bu ərazilərdə dalğalanması tarixi ədalət və istiqrarın bərpası anlamını verir və Ümmət olaraq bizi hədsiz sevindirir. Əminik ki, Qarabağın bütün məscidlərindən, zati-alinizin bəyan etdiyi kimi, uzun illər sonra yenidən azan səsləri ucalacaqdır, inşallah!

Zati-aliləri, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi qüdrətinin artması istiqamətində misilsiz səyləriniz, milli-mədəni irsin dirçəlişinə qayğı və himayəniz müdrik siyasətin nümunəsi kimi beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Siz sülhsevər siyasət yürüdərək, uzun illər ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli sülh yolu ilə, beynəlxalq hüquqa və beynəlxalq təşkilatların qərar və səylərinə istinadən həllində ardıcıllıq nümayiş etdirmisiniz. Zati-alinizin bu günlər mətin, nüfuzlu sərkərdə, öz xalqının dərin məhəbbət və etimadını qazanmış, ordusunun qüdrətinə güvənən yenilməz dövlət lideri olaraq dünyanın demək olar ki, bütün aparıcı media qurumlarında Azərbaycan həqiqətlərini, Qarabağ reallıqlarını inam, qətiyyət və siyasi mədəniyyət nümunəsi ilə dünya ictimaiyyətinə çatdırması qlobal miqyaslı dövlət xadimi statusunuzun bariz nümunəsidir.

Möhtərəm cənab Prezident, Siz illərdir ki, multikulturalizm və İslam həmrəyliyi kimi insan həmrəyliyinə xidmət edən qlobal ideyaların, dünyada sülh və anlaşmaya nail olunması yönündə mədəniyyətlər və sivilizasiyalararası dialoq zəminində beynəlxalq əməkdaşlığa dair forumların, Dünya Dini Liderlərinin sammitlərinin təşəbbüskarı, habelə məşhur "Bakı Prosesi"nin müəllifi kimi tanınırsınız. Dünya ictimaiyyəti, o cümlədən, İslam aləmi bunu yüksək dəyərləndirir. Beynəlxalq konfransımızda iştirak edənlərin əksəriyyəti zamanında dünyanın ən böyük dövlətinin siyasi zirvəsində yer alan nüfuzlu müsəlman, Azərbaycanın böyük oğlu Heydər Əliyevi yaxşı xatırlayır. Müsəlman dünyası olaraq biz bu böyük şəxsiyyətlə qürur duyduğumuz kimi, Heydər Əliyev siyasi məktəbinin ardıcıl olan qətiyyətli siyasi lider, ata vəsiyyətini yerinə yetirərək ruhunu şad edən, İslam torpağının - Qarabağın fatehi olan Zati-alinizin qalibiyyətli zəfəri ilə fəxr edirik.

Azərbaycanın əzəli torpaqları olan Qarabağın və İslam dünyasının mədəniyyət beşiyi Şuşanın işğaldan azad olunması münasibətilə bir daha Zati-alinizi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı, bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirik. Bu, öz torpaqlarına, milli-dini dəyərlərinə, ümumislam irsinə sahib çıxan müzəffər xalqın Uca Allahın xeyir-duası ilə, rəşadətli Ordusunun gücünə arxalanaraq tarixi ədaləti bərpa etməsidir.

Zati-aliləri, haqq işi uğrunda - dövlətin ərazi bütövlüyünün bərpasında Ali Baş Komandan olaraq qazandığınız qələbələr dünyada beynəlxalq hüququn təmininə xidmət edən nümunəvi tarixi missiyadır. Bu qələbənin əldə edilməsində şəhid olmuş qəhrəman Azərbaycan oğullarına Uca Allahdan rəhmət diləyir, yaralılara şəfa arzulayırıq. Zati-alinizə Azərbaycan xalqı və dövləti naminə fəaliyyətinizdə, ərazi bütövlüyünün bərpası istiqamətində yeni zəfər və qələbələr, dünya miqyasında dəyər kəsb edən səy və əməllərinizə Allah-Təaladan uğurlar diləyirik.

Uca Yaradan hər zaman yardımçınız olsun, Öz Lütf və Mərhəmətini hər zaman Azərbaycan xalqı və dövləti üzərində bərqərar etsin! Amin.

*Dərin hörmətlə,*

2020-ci il noyabrın 10-da keçirilmiş "Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü" mövzusunda onlayn beynəlxalq konfransın iştirakçıları:

**Şeyxülislam Allahşükür Paşazadə** - Qafqaz Müsəlmanları İdarəsinin sədri;
**Mərğub Səlim Bat** - İslam Əməkdaşlığı Təşkilatının (İƏT) Baş katibi Y.Ə.Əl-Useyminin xüsusi nümayəndəsi;
**Ali Erbaş** - Türkiyə Cümhuriyyətinin Diyanət İşləri Başqanı;
**Əbuzər İbrahimi Torkaman** - İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri;
**Əli Muhyiddin Əl-Qaradaği** - Beynəlxalq İslam Üləmaları Birliyinin Baş katibi;
**Mübariz Qurbanlı** -Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri;
**Əl-Seyyid Mahmud Əl-Şərif** - Misir Ərəb Respublikası Parlamenti Sədrinin birinci müavini, Şəriflər Cəmiyyətinin rəhbəri;
**Salim Əl-Malik** - İƏT-in İslam Aləmi Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İCESCO) Baş direktoru;
**Usmanxon Alimov** - Özbəkistan Müsəlmanları İdarəsinin sədri, Müfti;
**Məhəmməd Qasem Həlimi** - Əfqanıstan İslam Respublikasının Həcc, İrşad və Vəqflər naziri;
**Halit Eren** - İƏT-in İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırmaları Mərkəzinin (İRCİCA) Baş direktoru;
**Şeyx Məhəmməd Mənsur Nias** - Seneqal Respublikası Prezidentinin Dini işlər üzrə müşaviri;
**Əhməd Təmim** - Ukrayna Müsəlmanları Ruhani İdarəsinin sədri, Müfti;
**Sahibzadə Sultan Əhməd Əli** - Pakistan Müsəlman İnstitutunun direktoru;
**Yəhya Pallaviçini** - İtaliya Müsəlman İcmasının prezidenti, Milan məscidinin imamı;
**Yusuf Abdulrahman Nzibo** - Keniya Fatima bint Xalfan Fondunun təsisçi sədri, Nayrobi məscidinin sədri;
**Mustafa Alış Hacı** - Bolqarıstanın müftisi;
**Rifat Feyzic** - Monteneqronun müftisi;
**Zoltan Robert Bolek** - Macarıstan Müsəlman İcmasının sədri;
**Əziz Əl-Kobaiti İdrisi** - Mərakeş Sufi və Estetik Araşdırmalar üzrə Beynəlxalq Akademik Mərkəzinin prezidenti;
**Altay Abibullayev** - Nursultan Nazarbayev adına Dinlərarası və Mədəniyyətlərarası Dialoqun İnkişafı Mərkəzinin İdarə Heyətinin sədri;
**Xamis Səid Mataka** - Tanzaniya Milli Müsəlman Şurasının sədri;
**Maksatbek Toktomuşev** - Qırğızıstan Müsəlmanları İdarəsinin sədri, Müfti;
**Sahib Məmmədov** - QMİ-nin Naxçıvan bölgəsi üzrə qazısı;
**Bünyamin Çil** - QMİ-nin Türkiyədəki səlahiyyətli nümayəndəsi;
**Əli Əliyev** - QMİ-nin Gürcüstandakı səlahiyyətli nümayəndəsi;
**Şaqabitdin Kerimov** - QMİ-nin Şimali Qafqaz və Dağıstanda səlahiyyətli nümayəndəsi;
**Şamil Rəsulov** - QMİ-nin İran İslam Respublikasındakı səlahiyyətli nümayəndəsi;
**Seymur Nəsirov** - Misirdəki Azərbaycan Diaspora Təşkilatları Birliyinin sədri.

# *Mehriban ƏLİYEVA:* "Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu!"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın paylaşımında deyilir:

"Əziz həmvətənlər!

Bu gün böyük gündür - Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu! Həqiqətən əlamətdar olan bu hadisə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm!



Ermənistan özünün tam və qeyd-şərtsiz kapitulyasiyasını etiraf etdi! Biz öz nəcib xilaskar missiyamızı şərəflə yerinə yetirdik! Biz öz Vətənimizi qoruduq, əzəli Azərbaycan torpaqlarını işğaldan azad etdik, Azərbaycanın səbirlə gözlədiyi Qələbəni qazandıq! Biz uzun illər boyu həqiqətin və tarixi ədalətin təntənəsini gözləyirdik. Münaqişənin dinc yolla nizamlanmasına dair danışıqlar prosesində 30 ilə yaxın iştirak etməyimiz bizim sülh tərəfdarı olmağımızın əyani göstəricisidir. Ermənistan 27 il ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərib. Ermənistan tərəfindən törədilən hərbi təxribatlar bitib-tükənmirdi. Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o, özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi!

2020-ci il sentyabrın 27-dən davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan Ordusu təqribən 300 yaşayış məntəqəsini, o cümlədən 5 şəhəri və 4 qəsəbəni, çoxsaylı strateji yüksəklikləri azad etdi. Azərbaycanın mədəniyyət incisi - Şuşa şəhəri azad ediləndən cəmi bir neçə saat sonra bizim döyüşçülərimiz 72 yaşayış məntəqəsini və 9 strateji yüksəkliyi öz nəzarəti altına almağa nail oldu. Bu, şübhəsiz, Ermənistanın hərbi və siyasi rəhbərini çıxılmaz vəziyyətə saldı. Bizim ordumuz öz müqəddəs dəyərləri - Vətənimiz, ortaq evimiz uğrunda döyüşürdü və bu müqəddəs mübarizədə dözüb dayandı və qalib gəldi!

Bu anlarda bütün dünya azərbaycanlıları sevinc və qürur hissləri keçirir. Bizim Prezidentimizə görə, igid əsgərlərimizə və zabitlərimizə görə, Azərbaycan xalqının vətənpərvərliyinə, sıx birliyinə və həmrəyliyinə görə qürur keçirir!

Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Onun rəhbərliyi ilə müasir, güclü Azərbaycan Ordusu yaradılıb! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu. Prezidentimizin güc mənbəyi olan Azərbaycan xalqının hörməti, sevgisi, etimadı, inamı və dəstəyi ona Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini başa çatdırmaqda kömək etdi. Onun başçılığı ilə biz xalqımızın özünəinamını qaytaran Qələbəni qazandıq! Bu Qələbənin möhtəşəmliyi Azərbaycan dövlətinin tarixində əbədi qalacaq!

Əziz qardaşlar və bacılar!

Torpaqlarımızın xaincəsinə işğalı illərində olduğu kimi, budəfəki döyüşlər dövründə də faciələr və itkilər oldu. Hərbi əməliyyatlar zonasından uzaqda vəhşicəsinə hücumlar nəticəsində şəhərlərimizin və kəndlərimizin dinc sakinləri həlak oldu. Uşaqlar, qadınlar və ahıl insanlar həlak oldu. Amma bu, Azərbaycanın əzmini sındırmadı! Mən həlak olanların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm! Onların qanı yerdə qalmadı! Azərbaycan Ordusu, Azərbaycan dövləti bütün həmvətənlərimizin axıdılmış qanına görə qisas aldı!

Vətənimizi müdafiə edən, onu dirçəldən nəslin işıqlı xatirəsi, bu nəslə hörmət və ona görə səmimi qürur hissi hər bir azərbaycanlının qəlbində həmişəlik qalacaq! Bizim əsgər və zabitlərimiz canlarını belə əsirgəmədən döyüşüblər. Onlar nəciblik və həqiqi vətənpərvərlik nümunəsi göstəriblər. Bu gün onların hamısını Vətən naminə, onun qüdrəti naminə göstərdikləri igidliklər birləşdirir! Biz onların rəşadəti, iradəsi və ruh yüksəkliyi qarşısında, öz mətanəti ilə işğalçını sarsıdan, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən hər kəsin qarşısında baş əyirik! Adları Azərbaycan dövlətinin tarixinə əbədi olaraq yazılan bu cür igid övladlar böyüdüb tərbiyə etmiş valideynlərin qarşısında baş əyirik! Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Bu müharibə bizə əsrlərboyu bildiyimiz bir həqiqəti - dost dar gündə tanınar həqiqətini bir daha sübut etdi. Dünyadakı bütün dostlarımıza minnətdaram! Sağ olsunlar ki, bizim dərdimizə şərik oldular, Azərbaycan xalqını dəstəkləyən prinsipial və ədalətli mövqelərini açıq bildirdilər. Qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana xüsusi təşəkkürümü bildirirəm. Onların həmrəyliyi və dəstəyi hər bir azərbaycanlıda qürur hissi oyadır!

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm. Onların yüksək peşəkarlığı, obyektivliyi, qərəzsizliyi, operativliyi və məsuliyyəti sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün oldu. Öz vətənlərinin hüdudlarından kənarda Azərbaycanın mövqeyini müdafiə edən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən soydaşlarımız sağ olsunlar! Arxa cəbhədə bir yumruq kimi birləşərək Azərbaycan dövlətinin qüdrətini və bizim həmrəyliyimizi bütün dünyaya nümayiş etdirmiş bütün Azərbaycan xalqına minnətdaram!

Əziz həmvətənlər!

Sizin hamınızı Böyük Qələbə Günü münasibətilə təbrik edirəm! Böyük zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!

*Dərin hörmət və sevgilərlə,*

*Sizin MEHRİBAN"*

# *Mehriban ƏLİYEVA:* "Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı təbrik edirəm"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində tarixi qələbə ilə bağlı paylaşım edib. Paylaşımda deyilir:




"Bu anlarda bütün xalqımız təsvirəgəlməz qürur və sevinc hissləri keçirir! Şuşa işğaldan azad edilib! Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!

İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi bizim rəşadətli əsgərlərimizin qəhrəmanlığı və igidliyi, dözümlülüyü və qələbə əzmi sayəsində mümkün olur! Vətən naminə canlarından keçmiş şəhidlərimizə Allah rəhmət eləsin!

Əziz qardaşlar və bacılar!

Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı bir daha təbrik edirəm.

Qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq-Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

# *Mehriban ƏLİYEVA:* "Bizim qəlblərimiz öz bayrağımıza və Vətənimizə görə həmişə qürur hissi ilə dolu olacaq!"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Dövlət Bayrağı Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:




"Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə bütün həmvətənlərimizi səmimi-qəlbdən təbrik edirəm! Bizim qəlblərimiz öz bayrağımıza və Vətənimizə görə həmişə qürur hissi ilə dolu olacaq! Qoy bizim üçrəngli bayrağımız suveren, qüdrətli Azərbaycan səmasında əbədi dalğalansın!"

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Biz - Azərbaycanda yaşayan xalqların nümayəndələri Sizin və rəşadətli Ordumuzun misilsiz şücaəti sayəsində vətənimiz Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın mənfur düşmən işğalından azad edilməsi münasibətilə ürəkdən təbrik edir, yorulmaz fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayırıq. Məhz Sizin komandanlığınız altında şanlı Ordumuzun erməni işğalçıları üzərində qazandığı zəfərlər hər birimizdə qürur, iftixar hissləri yaradır. İşğal altında olan ərazilərimizin erməni faşistlərindən təmizlənməsi uğrunda aparılan mübarizə bir daha sübut etdi ki, Azərbaycan xalqı özünün etnik, dini müxtəlifliyinə baxmayaraq, vahid, yenilməz və bölünməzdir. Məkrli düşmənin və onun əlaltılarının illər boyu apardıqları pozuculuq fəaliyyəti, təxribat cəhdləri nəinki tamamilə iflasa uğradı, eyni zamanda, Vətən müharibəsi bizim əbədi və sarsılmaz qardaşlıq tellərimizi daha da möhkəmləndirdi. Azərbaycan xalqlarının bütün nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə böyük fədakarlıq, vətənpərvərlik nümunəsi göstərdilər. Biz Azərbaycan əsgərlərini və şəhidlərimizi etnik və ya dini kimliklərinə görə ayırmırıq, onların hər biri bizim fəxrimiz, övladlarımız, bütöv Azərbaycan xalqının oğullarıdır.

Vətən müharibəsinin həyəcan, lakin böyük ümid dolu dövründə elə gün olmadı ki, ölkənin fərqli inanc yerlərində, müxtəlif dillərdə qəhrəman Azərbaycan Ordusuna, müasir Azərbaycan tarixinin yeni qalibiyyət səhifəsini yazmış Müzəffər Ali Baş Komandanımıza dualar edilməsin, Vətən torpaqlarının erməni işğalçılarından azad olunmasında fədakarlıq göstərən əsgər və zabitlərimizə Uca Rəbbimizdən cansağlığı, qələbə müjdəsi arzuları dilə gətirilməsin. Misilsiz tarixi Qələbəmizin əldə olunmasında Sizin müdrik dövlət başçısı, qətiyyətli sərkərdə və Azərbaycan xalqının böyük oğlu, Ümummilli Lider Heydər Əliyev məktəbinin layiqli davamçısı kimi misilsiz xidmətlərinizi və nailiyyətlərinizi yüksək dəyərləndirir, 30 illik intizardan sonra bizə qələbə sevincini yaşatdığınıza görə Azərbaycanda yaşayan bütün xalqlar adından dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, Sizi bir daha əmin edirik ki, Azərbaycan Respublikasının ərazisində yaşayan xalqlar həm doğma Vətənimizin müdafiəsində, milli dövlətçiliyimizin daha da inkişaf etməsində, ərazi bütövlüyümüzün qorunmasında, həm də dinc quruculuq işlərində Sizin fəaliyyətinizi bundan sonra da daim dəstəkləyəcək və yanınızda olacaqlar. Sizinlə fəxr edirik! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

*Dərin hörmət və ehtiramla,*

**Kamal Abdullayev** - Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri
**Rəvan Həsənov** - Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru
**İmamverdi Həmidov** - Azərbaycanda talış icmasının ağsaqqalı
**Əhmədə Həpo** - Azərbaycanda kürd icmasının ağsaqqalı
**İmran Rzayev** - "Samur" Ləzgi Mərkəzinin sədri
**Məhəmməd Nooyev** - Azərbaycan-Avar İctimai Birliyinin sədri
**Mixail Zabelin** - Azərbaycanda Rus İcmasının sədri, Milli Məclisin deputatı
**Elman Əhmədov** - "Azəri" Tat Mədəniyyət Mərkəzi İctimai Birliyinin sədri
**Milix Yevdayev** - Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri
**Robert Mobili** - Alban-Udi Xristian Dini İcmasının sədri
**Aleksandr Şarovski** - Avropa Yəhudilərinin Bakı Dini İcmasının sədri
**Rafiq Abdullayev** - "Buduq" Xeyriyyə Cəmiyyətinin sədri
**Gülcan Miəsautova** - "Tuqan tel" Tatar Mədəniyyəti Cəmiyyətinin sədri
**Ismayıl Rəhimov** - Azərbaycanda Yaşayan Axısxa Türklərinin "Vətən" İctimai Birliyinin sədri
**Sevinc Bulacova** - Azərbaycanda ingiloy icmasının rəhbəri
**Rafael Qvaladze** - Azərbaycanda yaşayan gürcü icmasının sədri.

*Azərbaycan Respublikası, Bakı şəhəri*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Cənab Ali Baş Komandan!

Azərbaycanın əzəli torpaqlarının 30 ildir ki, davam edən işğalına son qoyduğunuz, 1 milyon qaçqın və məcburi köçkünümüzün öz doğma torpaqlarına qayıtmaq arzusuna qovuşmağına şərait yaratdığınız üçün Azərbaycan gəncliyi adından Sizə dərin təşəkkürümüzü ifadə edirik. Azərbaycan gəncliyi Sizinlə fəxr edir, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarix yaradan rəşadətli Azərbaycan Ordusu ilə qürur duyur!

Bu tarixi qələbə Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və son 17 il ərzində Sizin addım-addım həyata keçirdiyiniz uğurlu daxili və xarici siyasətin məntiqi nəticəsidir. Bu qələbə güclü iqtisadiyyat, müasir ordu quruculuğu, milli həmrəylik və beynəlxalq arenada əldə edilən uğurların nəticəsində mümkün olub. Məhz bu uğurların fonunda yetişən Azərbaycan gəncləri əsgər və zabitlər, iqtisadi fəaliyyətin müxtəlif sahələrində çalışan mütəxəssislər, dövlət qulluqçuları və diplomatlar kimi Ümummilli Liderin nəsihətləri və Sizin tövsiyələrinizə uyğun olaraq bugünkü qələbəmizin reallaşmasına töhfəsini vermək üçün əlindən gələni ediblər. Gənclərə verdiyiniz dəstəyi və yüksək qiyməti daim əziz tutan biz gənclər milli maraqlarımıza sədaqətimiz və fədakar əməyimizlə Vətənə olan borcumuzu ödəməkdən şərəf duyuruq.

Siz axıradək bu münaqişəni sülh yolu ilə, qan tökülmədən həll etməyə çalışdınız, bunun üçün lazım olan hər şeyi etdiniz. Təəssüf ki, Ermənistan rəhbərliyi bu sülhsevər səylərinizi adekvat qiymətləndirməyə qadir olmadı, ölkəmizə, xalqımıza qarşı yönəldilən işğalçılıq siyasətinə son qoymadı. Amma Sizin yaratdığınız, böyük uzaqgörənliklə silahlandırdığınız Azərbaycan Ordusu komandanlığınız ilə döyüş meydanında düşmənə layiq olduğu cavabı verdi, düşmən acı məğlubiyyətə uğradılaraq sülhə məcbur edildi.

Bu gün Azərbaycan dövlətinin və dövlətçiliyinin ən şanlı tarixlərindən birinə şahidlik edirik. Tarixin heç bir dövründə milli həmrəyliyimiz, xalq coşqusu bu səviyyədə təzahür etməyib. Birliyimiz dəmir yumruq kimidir və bu, birmənalı olaraq Sizin adınızla bağlıdır!

Bizə bu günləri yaşatdığınız üçün Sizə minnətdarıq.

Azərbaycan gəncliyi olaraq, Sizə inamımız tamdır. İnanırıq ki, Sizin rəhbərliyinizlə doğma xalqımız hələ çox uğurlara imza atacaq, Ulu Öndərin dediyi kimi, "Azərbaycan dünyaya günəş kimi doğacaq". Bütün fəaliyyətiniz dövründə olduğu kimi, bundan sonra da bizə həmişə inana, güvənə, arxalana bilərsiniz. Biz də gənclik olaraq, bu inamı doğrultmaq üçün bundan sonra da bütün qüvvə və bacarığımızla, təhsil və qabiliyyətimizlə Sizin sərəncamınızdayıq!

Biz Sizinlə Güclüyük!

Qarabağ Azərbaycandır!

***Azərbaycan Respublikası Gənclər Fondu***

# Azərbaycan dövlətinin şanlı Qələbəsi

## Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaradır

Azərbaycan tarixində bir çox şərəfli anlar olmuş, xalqımızın qürur mənbəyinə çevrilmiş hadisələr yaşanmışdır. Amma bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun zəfərləri, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir. Hər bir Azərbaycan vətəndaşı çox xoşbəxtdir ki, bu tarixi, şərəfli anlara şahidlik edir, möhtəşəm tarixi günləri yaşayır. AZƏRTAC xəbər verir ki, bu fikirlər Milli Məclisin Sədri Sahibə Qafarovanın məqaləsində yer alıb.



**Məqalədə deyilir:** "Bəli, bu gün Azərbaycan xalqının 30 illik həsrətinə son qoyulur. Bu 30 ildə Azərbaycan xalqı əzmlə, səbirlə, durmadan çalışaraq, öz dövlətini gücləndirərək tarixi anın yetişməsini, bu möhtəşəm xəbəri gözlədi. Heç bir beynəlxalq ədalətsizlik, heç bir əziyyət xalqımızın qələbəyə olan inamını sarsıtmadı, Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycanın liderinin iradəsinə təsir göstərmədi. Xalqımız "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar", - deyən Liderinin, Ali Baş Komandanının ətrafında hər gün daha sıx birləşdi, birliyimiz hər gün daha da möhkəmləndi. "Qarabağ Azərbaycandır və nida" ifadəsi bizim milli mübarizəmizin rəmzinə çevrildi. Bu birlik bizi Qarabağa qaytardı!"

Məqalədə qeyd edilir ki, sentyabrın 27-də Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribatlardan sonra Şanlı Ordumuzun əks-hücum əməliyyatları - Azərbaycan xalqı və dövləti üçün Vətən müharibəsi başladı. Bu haqq savaşında bugünə qədər 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi, digər qəsəbələr və nəhayət, iki gün öncə qədim Şuşa şəhəri Ordumuzun döyüş meydanındakı qəhrəmanlıqları nəticəsində işğaldan azad edildi. Azərbaycan Ordusunun şücaəti, yüksək döyüş qabiliyyəti və apardığı əməliyyatlar dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Ötən illər ərzində məqsədyönlü şəkildə inkişaf etdirilən, maddi-texniki bazası gücləndirilən, dünyanın ən güclü orduları sırasında olan Şanlı Azərbaycan Ordusunun sarsıdıcı zərbələri nəticəsində ağır itkilər verən Ermənistanın silahlı qüvvələrinin müqaviməti sındırıldı. İşğalçı ölkə artıq Azərbaycanın Şanlı Ordusu qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olduğunu dərk etdi və diz çökdü!

"Qeyd etməliyəm ki, Azərbaycan Ordusu döyüş meydanında Zəfər yürüşünü davam etdirdiyi günlərdə Prezident İlham Əliyev beynəlxalq mediaya müsahibələrində, bir çox ölkələrin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırdı, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etdi. Bütün dünya həqiqətləri məhz Azərbaycanın dövlət başçısından, ən etibarlı mənbədən əldə etdi. Azərbaycan işğalçı ölkənin və erməni diasporunun yalan təbliğatını, çirkin qara piar kampaniyasını dövlət başçısının qətiyyəti sayəsində darmadağın etdi. "Mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi", - deyən möhtərəm Prezident İlham Əliyevin yüksək diplomatik səriştəsi, sarsılmaz iradəsi və möhtəşəm liderliyi ilə diplomatiya sahəsində də parlaq qələbələr təmin olundu. Xalqımızın öz lideri ətrafında bir yumruq kimi birləşməsi düşməni bütün cəbhələrdə məğlubiyyətə uğratdı və Azərbaycan hər bir platformada gücünü göstərdi. Son illər ərzində ölkəmizdə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə görülən işlər və həyata keçirilən çoxşaxəli islahatlar, möhkəm əsaslara malik xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyədə qurulması və həmrəyliyin təmin olunması, Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi və bu kimi əhəmiyyətli nailiyyətlər bu Qələbəni şərtləndirən mühüm məsələlər sırasındadır", - deyə Sahibə Qafarova vurğulayır.

Məqalədə daha sonra bildirilir ki, nəhayət, noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti arasında bəyanat imzalandı. Birmənalı şəkildə qeyd etməliyik ki, bu bəyanat Azərbaycan dövlətinin şanlı Qələbəsi, Ermənistan üçün isə faktiki olaraq hərbi kapitulyasiya deməkdir. Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi möhtəşəm qələbələr, Azərbaycan Liderinin, Ordumuzun, xalqımızın dəmir yumruğu Ermənistanı bu bəyanata imza atmağa məcbur etdi.

Bu bəyanatın tarixi əhəmiyyəti olduqca böyükdür. İlk növbədə, bu bəyanat 30 ilə yaxındır davam edən işğala son qoyur. Bu sənəd hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən geri qaytarmağa imkan verir. Həmçinin Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olunur və azərbaycanlılar öz doğma torpaqlarına, yurd-yuvalarına qayıdırlar. Budur, Qələbənin, Zəfərin xoşbəxtliyi! Möhtərəm Prezident İlham Əliyevin təbirincə desək, "Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"

Spiker yazır: "Azərbaycan dövləti bu zəfəri həm döyüş meydanında, həm də siyasi müstəvidə qazandı. Öz Liderinin, öz Ordusunun gücü, xalqın sarsılmaz birliyi sayəsində zəfər əldə etdi. Qəhrəman əsgərlərimizin şücaəti, fədakarlığı nəticəsində biz torpaqlarımızı işğaldan azad etdik. Vətən müharibəsində öz qanı, canı bahasına torpaqlarımızı qoruyan şəhidlərimizə Allah rəhmət eləsin, onlar bizim qəlbimizdə əbədi yaşayacaq. Bütün yaralı hərbçilərimizə şəfa diləyirəm.

Beləliklə, əldə etdiyimiz bu tarixi zəfər, torpaqlarımızın azad edilməsi həm də Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Dünyanın harasında olmasından, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz dövləti, onun zəfərləri ilə haqlı olaraq qürur duyur, azərbaycanlı olmağı ilə fəxr edir. Bu xoşbəxtliyi, bu qüruru bizə Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusu yaşatdı. Bu müharibə Azərbaycan xalqının, onun Liderinin, Şanlı Ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaradır.

Eşq olsun Ali Baş Komandan İlham Əliyevə! Eşq olsun qüdrətli Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!"

# Türkiyə və Rusiya prezidentlərinin telefon danışığı olub



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. AZƏRTAC xəbər verir ki, telefon danışığında Türkiyənin dövlət başçısı Dağlıq Qarabağ məsələsi ilə bağlı uzunmüddətli sülh yolunda düzgün addım atıldığını ifadə edib.

Prezident Rəcəb Tayyib Ərdoğan hazırkı məqamda ən önəmli məsələnin Ermənistanın atəşkəsə və ortaq bəyanatdakı öhdəliklərə əməl etməsi olduğunu vurğulayıb.

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub

Noyabrın 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Türkiyənin xarici işlər naziri qələbə münasibətilə nazir Ceyhun Bayramovu və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edib. Bir millət, iki dövlət olaraq, Azərbaycanın bu sevincinin Türkiyə tərəfindən paylaşıldığını vurğulayıb.

Nazir Ceyhun Bayramov hər zaman Azərbaycan xalqının yanında olduğu, ölkəmizin haqlı mövqeyinə münasibətdə qəti dəstəyini heç zaman əsirgəmədiyi, sevincimizi və kədərimizi bölüşdüyü üçün türkiyəli həmkarına və qardaş Türkiyə xalqına təşəkkürünü bildirib.

# Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri telefonla danışıblar

Noyabrın 10-da Azərbaycan tərəfinin təşəbbüsü ilə xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Rusiya Federasiyasının təşəbbüsü ilə noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın əhəmiyyətini vurğulayıb və bu sənədin uzun illərdir davam edən münaqişənin həllində yeni mərhələni başlatdığını qeyd edib. Nazir Ceyhun Bayramov bölgədə sülhün təmin olunması üçün davamlı səylərinə görə Rusiya tərəfinə təşəkkürünü bildirib.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov öz növbəsində münaqişənin həlli istiqamətində mühüm addım olan bu bəyanatın imzalanması ilə əlaqədar məmnunluğunu ifadə edib. O, tərəflərin bu qərarının bölgədə dayanıqlı sülhün təmin olunması baxımından yüksək əhəmiyyət kəsb etdiyini bildirib.

# *Sahibə QAFAROVA:* "Bu gün Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və biz tarixi torpaqlarımıza, doğma Qarabağımıza qayıdırıq"

Milli Məclisin Sədri Sahibə Qafarova Qarabağ müharibəsində Azərbaycanın qazandığı tarixi qələbə münasibətilə xalqımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir: "Hörmətli həmvətənlər! Əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağımızı bizə geri qaytaran bu şanlı qələbəmiz münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edirəm!

Bu möhtəşəm və tarixi günlər hər birimizin həyatında ən xoşbəxt, ən yaddaqalan günlər olacaqdır. Bu gün Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və biz tarixi torpaqlarımıza, doğma Qarabağımıza qayıdırıq.

Bu zəfərin memarı, bu möhtəşəm nailiyyətləri qızıl hərflərlə Azərbaycan tarixinə yazan Ali Baş Komandanımız İlham Əliyev və Şanlı Ordumuzdur!

Bu zəfər Azərbaycan xalqının, onun Liderinin və Ordusunun gücünü bütün dünyaya göstərdi.

Eşq olsun Ali Baş Komandan İlham Əliyevə!

Eşq olsun qüdrətli Azərbaycan Ordusuna!

Qarabağ Azərbaycandır!

Yaşasın Azərbaycan!"

# Ali Baş Komandan Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi

Bu gün Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuz tarix yazdı, uzun illər işğal altında olan ərazilərimiz birdəfəlik işğaldan azad edildi. Müharibənin başladığı ilk günlərdən etibarən bir-bir azad olunan kəndlərimizin, qəsəbələrimizin, şəhər və rayonlarımızın siyahısını gördükcə hər bir azərbaycanlının ürəyi dağa dönür. Bu qalibiyyət uzun illər aparılan uğurlu siyasətin məntiqi nəticəsidir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.



Adil Əliyev deyib ki, istər ordu quruculuğu, istərsə də qurulan diplomatik münasibətlərimiz bu gün öz uğurlu bəhrəsini verdi. Azərbaycan Ordusu Ali Baş Komandan tərəfindən üzərinə qoyulmuş bütün vəzifələrin öhdəsindən layiqincə gələrək düşməni təslim olmağa məcbur etdi.

Ermənistan aparılan müharibədə bütün silah, texnika və şəxsi heyətini tamamilə itirdi və onlar bu müharibənin ağrı-acılarını uzun illər yaşayacaqlar. Ermənistan yalnız müharibənin davam etdiyi 44 gün ərzində elə məğlub oldu ki, itirdiyi texnikalara görə illərlə ödəniş etməyə məcbur olacaq.

Qalibiyyətin məntiqi davamı olaraq, Ermənistanın baş naziri kapitulyasiya sənədinə imza atmağa məcbur oldu. Kapitulyasiya - müharibədə məğlub tərəfin qalib gələn tərəfin diktə etdiyi bütün şərtləri qeyd-şərtsiz qəbul etməsi və onu icra etməyi üzərinə götürdüyü bir müqavilədir.

Təbii ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün şərtləri diktə etdi və Ermənistanın baş naziri bunu qəbul etməyə razı oldu. Dəfələrlə deyilmişdi ki, bu müharibə həm də Ermənistanın baş nazirinin siyasi karyerasının sonu olacaq və Ermənistanda baş verən proseslər artıq bunu deməyə əsas verir. Ermənistanın baş naziri Şuşada yallı oynamaqla, qondarma rejimə inauqurasiya mərasimi keçirməklə Azərbaycan xalqının və onun liderinin səbrini sınağa çəkdi.

Ölkə başçısı dəfələrlə xəbərdarlıq etdi, hətta BMT-nin iclasında bildirdi ki, əgər Ermənistanı dayandırmasanız, biz onları dayandıracağıq. Lakin dünya dövlətləri sanki Ermənistanın apardığı təxribat siyasətini görmür, işğalçının bu siyasətini dəstəkləyirdilər. Nəticədə işğalçı məğlub oldu, işğal etdiyi əraziləri birdəfəlik tərk etməklə yanaşı, məğlub tərəf olaraq Azərbaycanın bütün diktəsinə qeyd-şərtsiz əməl edəcəyini öz öhdəsinə götürdü. Habelə Ermənistanın yeganə itkisi torpaq itkisi olmadı, həm də siyasi və iqtisadi çöküşlərini yaşayırlar, etdikləri səhvlər nə qədər böyük idisə, yaşadıqları məğlubiyyət də o qədər ağrılı oldu.

Biz isə Ali Baş Komandanın rəhbərliyi ilə 30 ilə yaxın işğal altında olan ərazilərimizi işğaldan azad edərək öz əbədi və əzəli torpaqlarımıza geri qayıtdıq, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü təmin etdik.

Şuşa şəhəri azad edildikdən sonra isə artıq Ermənistanın məğlub olduğu hamı üçün açıq-aşkar idi. Tarixi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi hər birimiz üçün böyük bir bayramdır. Dilindən, dinindən, siyasi fikirlərindən asılı olmayaraq, hər bir azərbaycanlının cənab Prezidentin ətrafında sıx birləşərək həmrəylik göstərməsi isə Azərbaycan xalqının və onun rəhbərinin qüdrətindən xəbər verir. Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların Ali Baş Komandana göstərdiyi inam və etimad öz uğurlu bəhrəsini verdi.

Tarix bir daha göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır, onun güclü iradəsi var. Xalqımız mərhəmətli olduğu qədər də, yeri gəldikdə, düşmənə zərbə vuracaq dəmir yumruğu var. Azərbaycan xalqı bu gün xoşbəxtdir, onun Prezidenti dünyanın ən güclü lideridir. Onun Prezidentinin istər diplomatiyada, istər xarici televiziyalara verdiyi müsahibələrdə keçdiyi master-klaslarda, istərsə də rəhbərlik etdiyi Ordunun döyüş meydanında göstərdiyi şücaətlərdə misli-bərabəri yoxdur. Cənab Prezident İlham Əliyev "Qarabağ Azərbaycandır!" dedi və Qarabağdakı düşmən işğalına birdəfəlik son qoydu.

# Azərbaycan bu Qələbəni qazanmaqla öz tarixinin qızıl səhifəsini, şərəf və ləyaqət səhifəsini yazıb






Noyabrın 10-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Vətən müharibəsində qazanılmış qələbə münasibətilə videokonfrans keçirilib. AZƏRTAC xəbər verir ki, videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov möhtəşəm Qələbə münasibətilə təbriklərini çatdırıb. Bildirib ki, Azərbaycan Ordusunun əldə etdiyi Böyük Qələbə tariximizdə xüsusi əhəmiyyət kəsb edir. Bu Qələbə tariximizə qızıl hərflərlə yazılacaq.

"Xalqımız 30 il bu Qələbəni gözləyib, amma təkcə gözləməyib, ona hazırlaşıb", - deyən Əli Əhmədovun sözlərinə görə, bunun nəticəsində də Azərbaycan möhtəşəm, əzəmətli Qələbəsini təmin edib. Bu Qələbənin tarixdə mühüm yeri təkcə 30 il sonra torpaqlarımızın işğaldan azad edilməsi deyil, həm də milli qürurumuzun qaytarılmasıdır. "İndi hər bir vətəndaşımız azərbaycanlı olmasının qürurunu yaşayır. Bu tarixi Qələbəni müəyyənləşdirən daha bir cəhət onun döyüş meydanında qan bahasına, can bahasına əldə olunmasıdır. Heç şübhəsiz, Azərbaycan bu Qələbəni qazanmaqla öz tarixinin qızıl səhifəsini, şərəf və ləyaqət səhifəsini yazıb", - deyə Əli Əhmədov bildirib.

Möhtəşəm qələbənin qazanılmasının səbəblərindən danışan YAP sədrinin müavini qeyd edib ki, bu amillərdən biri xalqımızın dəyanətidir: "30 il ərzində xalqımız işğal faktı ilə razılaşmadı, güc topladı və öz torpaqlarını işğaldan azad etdi. İkincisi, möhtəşəm Qələbənin əldə olunmasında güclü Azərbaycan dövləti rol oynadı. Hər bir dövlətin əsas missiyalarından biri öz torpaqlarının təhlükəsizliyini təmin etməkdir və Azərbaycan dövləti də bunu etdi. Digər tərəfdən, Qələbənin təmin olunmasının mühüm səbəblərindən biri də müzəffər Azərbaycan Ordusu, cəngavər hərbçilərimizdir. Güclü Ordumuz olmasaydı, torpaqlarımızı azad edə bilməzdik. 30 il əvvəl Azərbaycan zəif olduğuna görə torpaqlarımız işğal olunmuşdusa, bu gün dövlətimizin qüdrəti, Ordumuzun döyüş qabiliyyəti sayəsində torpaqlarımız azad olundu. Qələbəmizin həlledici amili ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlət, xalq və ordu o zaman güclü olur ki, ona güclü lider rəhbərlik edir. Bu mənada, bu gün Azərbaycan xalqının böyük coşqu ilə qeyd etdiyi Qələbəmizin baş qəhrəmanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevdir. Biz hərb və diplomatiya cəbhəsində Prezident İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini gördük. Xalqımızın, dövlətimizin birliyi, dövlət başçısına inam bizim Qələbəmizlə nəticələndi. Məhz bunun nəticəsidir ki, Ermənistan tərəfindən bir neçə il ərzində zəbt olunmuş və 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində işğaldan azad etdik", - deyən Baş nazirin müavini möhtəşəm Qələbənin qazanılmasında qardaş Türkiyənin siyasi və mənəvi dəstəyini də xüsusi vurğulayıb.

Bu Qələbənin Azərbaycana sülh gətirməklə yanaşı, Cənubi Qafqazda da sülh və firavanlıq üçün də etibarlı zəmin yaratdığını qeyd edən Əli Əhmədov söyləyib: "Qürur duyuram ki, təmsil etdiyim Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin möhtəşəm rəhbərliyi, sərkərdəlik missiyası nəticəsində xalqımız öz tarixinin ən şərəfli anlarını yaşayır. Tarix öz şərəf səhifəsində Prezident İlham Əliyevin adını əbədi həkk edəcək. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev vaxtilə bildirmişdi ki, onun başa çatdıra bilmədiyi işləri İlham Əliyev sona çatdıracaq. Müdrikcəsinə deyilmiş bu fikirlər hazırda həyata keçir. Hesab edirəm ki, bu şanlı Qələbədən sonra Azərbaycan tarixinin yeni mərhələsi başlayacaq, Azərbaycan xalqı dünyada özünün dəyanəti, əyilməzliyi və Ordusunun gücü, qüdrəti ilə də tanınacaq".

Sonra videokonfransda çıxış edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Ziyafət Əsgərov bu gün xalqımızın qürurlu anlar yaşadığını bildirib. Vurğulayıb ki, 30 il işğal altında olan torpaqlarımız azad edilib. Onun sözlərinə görə, ötən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişənin siyasi həlli ilə bağlı heç bir addım atmayıb, Ermənistanı işğalçı kimi tanımayıb. Üstəlik, Ermənistan hakimiyyətinin təxribatları vəziyyəti daha da gərginləşdirdi. Buna görə də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz torpaqlarımızı işğaldan azad etməyə başladı.

Tədbirdə, həmçinin Milli Məclisin deputatları - Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa və "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyinin sədri Tural Gəncəliyev çıxış ediblər.

Natiqlər bildiriblər ki, Qarabağ probleminin həllində qazanılmış Qələbə Ermənistanın işğalçılıq siyasətinə son qoyur, erməni tərəfi artıq məğlubiyyətini etiraf edir. Qeyd olunub ki, bu Qələbə Prezidentimizin, xalqımızın və Ordumuzun birliyinin, milli həmrəyliyimizin parlaq təzahürüdür.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyənin Baş Ombudsmanı ilə görüşüb

Noyabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri qonaqları salamlayıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində göstərdiyi qardaşlıq dəstəyinə görə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana və türk xalqına hörmət və ehtiramını bildirib. Həmçinin Ali Məclisin Sədri Türkiyənin İzmir şəhərində baş vermiş zəlzələ və insan tələfatı ilə bağlı kədərini ifadə edib, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına başsağlığı verib, yaralananlara və xəsarət alanlara şəfa diləyib.

Ali Məclisin Sədri nümayəndə heyətinin Naxçıvana səfərinin 30 ilədək işğal altında olan torpaqlarımızın azad olunduğu və Azərbaycan xalqının böyük qələbə sevinci yaşadığı günə təsadüf etdiyini bildirib, bunu Türkiyənin bir daha Azərbaycan xalqının yanında olduğunun əyani ifadəsi kimi dəyərləndirərək deyib: "Eyni zamanda, bu gün Mustafa Kamal Atatürkün anım günüdür. İnsanlar vardır ki, bəşəriyyətə, insanlar da vardır ki, yalnız ölkəsinə, xalqına məxsusdur. Böyük öndər Mustafa Kamal Atatürk və Ulu Öndər Heydər Əliyev, sadəcə, dünyalarını dəyişiblər, ölməz əməlləri ilə bu gün də yaşayırlar. Xalqına xidmət etməklə bəşəri olmaq böyük şəxsiyyətlərə nəsib olur. Hər iki şəxsiyyət ayrı-ayrı dövrlərdə Azərbaycan-Türkiyə əlaqələrinin genişləndirilməsində mühüm rol oynamışlar. Baxmayaraq ki, uzun illər Azərbaycan sovetlər birliyinin tərkibində yaşamışdır, ancaq müstəqillik qazandıqdan sonra bu ideyalar yenidən dirçəlmiş, bugünkü Azərbaycan-Türkiyə qardaşlığı və strateji tərəfdaşlığı yaranmışdır".

Ali Məclisin Sədri Naxçıvanda ombudsman institutunun formalaşması, eləcə də bu sahədə görülən işləri diqqətə çatdırıb, çıxışını "Var olsun Türkiyə, var olsun Azərbaycan! Azərbaycan-Türkiyə qardaşlığına və dostluğuna eşq olsun!" fikirləri ilə tamamlayıb.

Şərəf Malkoç göstərilən səmimi münasibətə görə nümayəndə heyəti adından minnətdarlıq edərək deyib: "10 noyabr böyük öndər Mustafa Kamal Atatürkün anım günüdür. Həmçinin bu gün 30 ildir işğal altında olan Azərbaycan torpaqlarının azad olunması ilə əlamətdardır. Bu qələbə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyəti və Azərbaycan xalqının əzmi, həmçinin türk xalqının və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilə reallaşdı. Bu, bir daha sübut etdi ki, Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu sarsılmaz və əbədidir".

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Türkiyə Respublikasının Baş ombudsmanı Şərəf Malkoç Ali Məclisin Sədrinə xatirə hədiyyəsi təqdim edib, xatirə şəkli çəkdirilib.

Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak edib.

# Vətən Savaşı Azərbaycanın - İlham Əliyevin zəfəri ilə başa çatdı!

## 44 günlük müharibə 2 əsrlik münaqişəni bitirdi!



*Əvvəli 1-ci səh.*

İlham Əliyevin şəxsində xalqımızın və dövlətimizin zəfərini belə təsnifatlaşdırmaq olar:

- *Azərbaycanın ərazi bütövlüyü bərpa olundu;*
- *Ermənistan Respublikası təslimçilik aktını imzaladı;*
- *Ermənistan ordusu bir daha dirçəlməyəcək tərzdə məhv edildi;*
- *Qarabağın heç bir fərqləndirici idarəçilik statusu olmayacaq;*
- *Naxçıvan 102 illik həsrətdən sonra Azərbaycanın əsas hissəsi ilə quru əlaqəsi yaradaraq blokadadan çıxmaq fürsəti əldə etdi;*
- *Zəfərimizin bir parçası olan Türkiyə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzdə hərbi kontingentlə iştirak edəcək.*

Prezidentin komandanlığı ilə başlayan zəfər yürüşü nəticəsində 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad edildi, Silahlı Qüvvələrimiz Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun kəndlərini azadlığa qovuşdurdu.

Hər bir kəndin düşməndən təmizlənməsi ayrılıqda düzgün və güclü hərbi planın uğurlu gedişinin təzahürüdür. Hər bir yaşayış məntəqəsinin azadlığı qəhrəman əsgər və zabitlərimizin böyük rəşadətinin təntənəsidir.

Bu silsilədə Şuşanın azad edilməsi xüsusi fərqlənir. Hələki bu zəfərin bütün hərbi detalları məlum olmasa da, düşmənin alınmaz qalaya çevirdiyi qürur rəmzimizi Ordumuzun yalnız yüngül atıcı silahlarla fəth etməsi dünya hərb salnaməsinə düşmək haqqı qazandı.

Qələbə bəyanatının imzalanmasından bir neçə saat əvvəl isə 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edilməsi düşmənə növbəti sarsıdıcı zərbə idi.

### Mümkünsüzü mümkünə çevirən Komandan

Prezidentin hərbi əməliyyatların başlandığı ilk saatlarda təcavüzkardan konkret qrafik əsasında Azərbaycan torpaqlarını boşaltmasını tələb etməsi bəzilərinə nə qədər qeyri-real görünsə də, İlham Əliyev bu mümkünsüzü də mümkünə çevirdi.

Hərbi yürüşlə azad etdiyimiz yaşayış məntəqələrinin sırasına Prezidentin diplomatik istedadı hesabına Ağdam, Kəlbəcər və Laçın qısa müddətdə qansız-qadasız əlavə olunacaq!

Ümumiyyətlə isə, bu savaş İlham Əliyevin mümkünsüzü mümkünə çevirmək qüdrətini dəfələrlə nümayiş etdirdi.

Prezident -

- *Qarabağ cəbhəsində məğlub və qalib dövlət-xalq yerdəyişməsi etdi;*
- *Qarabağda yeni status-kvo, yeni hərbi-siyasi reallıq yaradaraq təmas xətti anlayışını birdəfəlik dəf etdi;*
- *Sülhməramlı statusda məhdud kontingentlə əraziyə yerləşəcək tərəf yalnız Rusiya olmayacaq, qardaşımız Türkiyə də möhtəşəm hərbi gücü ilə sülhyaratma missiyasının həmtəminatçısına çevriləcək;*
- *Naxçıvanın blokadadan azad olunması, Ermənistan ərazisi ilə dəhlizin yaradılması vəzifəsi Rusiyanın üzərinə qoyuldu;*
- *Hərbi, iqtisadi böhran məngənəsində olan Ermənistanı böyük siyasi xaosa sürüklədi;*
- *Ermənistanın fövqəldövlətlər timsalında olan havadarlarının hərbi əməliyyatları dayandırmaq tələbinə əhəmiyyət verməyərək sonadək getdi və hər addımda milli dəyanətimizi göstərdi;*
- *Onilliklər boyu erməni lobbisi tərəfindən formalaşan çox güclü anti-Azərbaycan informasiya məkanını təkbaşına darmadığın etdi;*
- *Qafqazın iqtisadi gücü olan Azərbaycanı artıq bütün bölgənin şəriksiz liderinə, yeganə söz sahibinə, qüdrətli "hami ata"sına çevirdi.*

### Dünya ermənilliyini məhv edən LİDER

İlham Əliyevin qazandığı zəfərin möhtəşəmliyi həm də ondadır ki, bu qələbənin miqyası, hüdudları hərbi-siyasi yönümdən tarixin yenidən yazılması gerçəkliyinədək uzanır.

İlham Əliyevin qələbəsi:

- *son 5 əsrin ən böyük torpaq qazancıdır!*
- *son iki əsrlik münaqişənin birdəfəlik bitməsidir!*
- *Qarabağla yanaşı, Naxçıvanı da vətənimizin qərb torpaqlarına qovuşdurmasıdır!*
- *bütün xalqı bir yumruq kimi birləşdirib tariximizin ən böyük xalq-iqtidar vəhdətini yaratmasıdır.*

İlham Əliyevin qələbəsi erməni xalqının sərsəm təxəyyülünün məhsulu olan və onu əsrlərdir bəlalara sürükləyən "Böyük Ermənistan" xülyasının tam iflasıdır!

İlham Əliyevin qələbəsi böyük qlobal güc olan dünya ermənilliyinin, erməni lobbisinin, erməni təbliğat maşınının darmadağın olunmasıdır!

İlham Əliyevin ən böyük zəfəri isə düşmənin indiyədək bütün qələbələrinin zəmini olan erməni xalqının birliyi, bütövlüyü, təəssübkeşliyi dəyərlərini məhv etməsidir!

### İlham Əliyevin qələbələri Ermənistanı rəzil günə salıb

İlham Əliyevin qələbələri bu gün Ermənistanı səfil, xaos içində olan, vətəndaş müharibəsi girdabına sürüklənən, hərbi məğlubiyyət yaşayan, tənəzzülə uğrayan ölkəyə çevirib.

Dünən səhərdən etibarən bütün Ermənistan qan çanağına dönüb. Paşinyanın kabineti, parlament binası, digər dövlət strukturları dağıdılıb, spiker ölümcül döyülüb...

Paşinyanın harda olduğu bilinmir, iqtidar komandası ondan imtina edib...

Müxalifət hakimiyyətin hərbi xuntaya verilməsini tələb edir...

Hərbçilər dövlət çevrilişi hazırlığındadırlar...

Xalq - bədbəxt ermənilər isə küçələrə tökülüşərək əslində, artıq nəyi istəmələrini də bilmirlər...

Ermənistan tənəzzüldə, erməni xalqı çarəsizlikdə, İlham Əliyev - Azərbaycan isə tarixi qələbəsini bayram etməkdədir!

Bu, hələ başlanğıcdır! Yeni başlanğıc!..

Azərbaycan tarixinin, həm də elə erməni tarixinin yeni başlanğıcı!

Biri zəfərlə, digəri isə məğlubiyyətlə yazılır!..

İlham Əliyevin yazdığı tarix həmişə möhtəşəm idi, amma indi daha da əzəmətlidir!

Qarabağı Azərbaycana qaytaran Sərkərdəyə millət olaraq borcumuz, şükranlığımız isə əbədidir...

***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# Azərbaycan XİN Rusiyaya məxsus hərbi helikopterin vurulması ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Rusiya Federasiyasının Müdafiə Nazirliyindən aldığı məlumata əsasən noyabrın 9-da saat 18.30-da Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan hissəsində Rusiya Federasiyasına məxsus Mi-24 hərbi helikopteri vurulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bununla bağlı yaydığı bəyanatda deyilir:

- helikopter Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zonasında aktiv hərbi döyüşlərin davam etdiyi bir vaxtda Ermənistan-Azərbaycan dövlət sərhədinin tam yaxınlığında uçuş həyata keçirib.
- uçuş günün qaranlıq vaxtında, aşağı hündürlükdə, hava müdafiəsi sisteminin radar müşahidəsindən kənar zonada həyata keçirilib.
- bundan öncə həmin ərazidə Rusiya Federasiyası Hərbi Hava Qüvvələrinin helikopterləri müşahidə edilməyib.

Qeyd olunan amilləri və bölgədəki gərgin vəziyyəti, habelə erməni tərəfinin mümkün təxribatları ilə əlaqədar yüksək döyüş hazırlığını nəzərə alaraq, növbətçi hərbi bölüm tərəfindən atəşin açılması qərarı verilib.

Təsadüfi xarakter daşıyan və Rusiya tərəfinə qarşı yönəlməyən bu faciəvi hadisə ilə bağlı Azərbaycan tərəfi Rusiya tərəfinə üzrxahlığını bildirir.

Azərbaycan tərəfi həlak olan ekipaj üzvlərinin ailələrinə dərin hüznlə başsağlığı bildirir və xəsarət alanların tezliklə sağalmalarını diləyir.

Azərbaycan tərəfi müvafiq kompensasiyanın ödənilməsinə hazır olduğunu bildirir.

# Azərbaycanın Baş prokuroru ilə rusiyalı həmkarı arasında helikopterin vurulması hadisəsi ilə bağlı telefon danışığı olub

Xəbər verildiyi kimi, noyabrın 9-da saat 18.30-da Ermənistan-Azərbaycan sərhədinin Naxçıvan hissəsində Rusiya Federasiyasına məxsus Mi-24 hərbi helikopterinin vurulması nəticəsində 2 hərbi qulluqçu həlak olub, 1 nəfər isə yaralanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin faktla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən dərhal araşdırmalara başlanılıb və baş vermiş hadisənin təfərrüatlarının hərtərəfli, tam və obyektiv araşdırılması məqsədilə Baş prokuror tərəfindən noyabrın 9-da Cinayət Məcəlləsinin 342.2-ci (qulluğa səhlənkar yanaşma - ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda, habelə müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə) maddəsi ilə cinayət işi başlanılıb və istintaqın aparılması Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğuna həvalə edilib.

Cinayət işi üzrə prokurorluq əməkdaşları tərəfindən hərbi mütəxəssislərin iştirakı ilə raketin atıldığı qurğuya, habelə informasiya sistemlərinə baxış olub, raketin atıldığı hərbi hissənin hərbi qulluqçuları dindirilib, zəruri olan sənədlər götürülüb və digər lazımi istintaq hərəkətləri həyata keçirilib. Hazırda təqsirkar şəxs və ya şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Həmin cinayət faktı ilə əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnova rəsmi məktub ünvanlayıb, eyni zamanda, aralarında telefon danışığı baş tutub.





Telefon əlaqəsi zamanı Baş prokuror hadisə nəticəsində həlak olanlarla bağlı rusiyalı həmkarına başsağlığı verib, yaralı hərbi qulluqçuya şəfa diləyib, həmçinin başlanmış cinayət işi üzrə həyata keçirilmiş ilkin istintaq hərəkətləri barədə həmkarını məlumatlandıraraq onu tam, obyektiv və hərtərəfli istintaq aparılmasına əmin edib.

Rusiya Federasiyasının Baş prokuroru, öz növbəsində, həmin faktla bağlı tərəflərindən də cinayət işinin başlanaraq istintaq aparılmasını və Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə istintaqın əlaqəli şəkildə aparılmasının işin səmərəliliyinin artırılmasına xidmət edəcəyini qeyd edib.

İqor Krasnov Azərbaycan tərəfinin hadisə ilə bağlı təxirəsalınmaz reaksiya verərək zəruri tədbirlərin görülməsinə görə təşəkkürünü bildirib.

Bundan başqa, Rusiya Federasiyasının Baş prokuroru imzalanmış 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatla bağlı məmnunluğunu ifadə edərək bəyanatda əks olunmuş müddəaların icrasının tərəflərin, o cümlədən Azərbaycan xalqının maraqlarına xidmət edəcəyini qeyd etməklə, sülhməramlı qüvvələrin regionda yerləşdirilməsinin sülh və əmin-amanlığın bərqərar olunmasında səmərəli rol oynayacağına ümidvar olduğunu vurğulayıb.

Kamran Əliyev və rusiyalı həmkarı İqor Krasnov ölkələrimizin prokurorluqları arasında olan sıx əməkdaşlıq və dostluq münasibətlərinin bütün istiqamətlərdə bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

# Azərbaycanın Baş Prokuroru BMT-nin insan hüquqları üzrə ali komissarına rəsmi məktub ünvanlayıb

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev BMT-nin insan hüquqları üzrə ali komissarı Mişel Baçeletə rəsmi məktub ünvanlayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş prokuror bildirib ki, Ermənistan tərəfindən insan hüquqları və beynəlxalq humanitar hüququn normalarının, eləcə də BMT-nin konvensiyalarının müddəalarının kobud şəkildə pozularaq Ermənistanın hərbi siyasi rəhbərliyi və diasporu tərəfindən xarici ölkələrin vətəndaşları olan erməni əsilli "könüllülər"in Azərbaycan Respublikasının ərazisində döyüş əməliyyatlarında iştirak etmələri üçün dəvət edilməsi və maliyyələşdirməsi müəyyən edilib.

Həmçinin diqqətə çatdırılıb ki, qanunsuz silahlı birləşmələrin və qrupların yaradılması bir çox xarici ölkələrin qanunvericiliyində olduğu kimi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində də cinayət əməlləri kimi qiymətləndirilir.

Bununla bağlı Azərbaycan Respublikasına qarşı döyüş əməliyyatlarında Ermənistan tərəfindən tək və ya qrup şəklində iştirak edən bəzi muzdluların ad və soyadları, vətəndaşları olduqları ölkələrin siyahısı açıqlanıb. Belə ki, Fransa vətəndaşları - Artur Ohanisyan, ASALA terror təşkilatının üzvü Gilbert Minasyan (onunla birlikdə adları istintaqa məlum olmayan 15 nəfər şəxs); "Zouaves Paris" ekstremist qrupunun lideri Mark de Kakkerey - Valmenir; Gürcüstan vətəndaşlığından artıq məhrum edilmiş Vaaqn Çaxalyan, İran İslam Respublikasının vətəndaşı Harmik Hovsepiyan, Belarus vətəndaşı Serov Sergey Valeriyeviç, ABŞ vətəndaşı Aruşan Badasyan və digərlərinin muzdlu kimi döyüş əməliyyatlarında iştirak etmələri məlum olub.

Həmçinin Ermənistan işğalından azad edilmiş ərazilərə baxış keçirilən zaman aşkarlanmış iki meyit üzərində muzdluların etnik mənşəyini sübut edən işarələr aşkar edilib ki, bu və qeyd edilən digər faktlar muzdluların iştirakını bir daha təsdiq edib.

Göstərilən faktlarla bağlı Baş Prokurorluq tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb və hazırda həmin işlər üzrə istintaq davam etdirilir.

Eyni zamanda, Baş prokuror Ermənistan silahlı qüvvələri tərəfindən qəsdən mülki əhalimizin hədəfə alınması və qadağan edilmiş fosfor bombalarından istifadə olunmasını xüsusilə qeyd edib.

Həmçinin diqqətə çatdırılıb ki, hazırkı vaxtadək "Skad" və "Smerç" raket qurğularından yalnız döyüş meydanında deyil, eləcə də mülki şəxslərə qarşı istifadə edilib, həmin faktlar "Human Rights Watch" və "Amnesty International" kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qeydə alınmaqla həmin əməllər "qəddar və ağılasığmaz" kimi qiymətləndirilib.

Noyabrın 7-də 16 yaşlı Şahmalı Rəhimovun Bərdə rayonuna növbəti mərmi atılması nəticəsində həlak olması və bununla da, həlak olan mülki şəxslərin sayının 93 nəfərə çatması vurğulanıb. Qeyd edilib ki, Ermənistan həm döyüş meydanında, həm də münaqişə zonasından kənarda yerləşən Tərtər, Ağcabədi və Goranboy rayonlarını qadağan edilmiş və son dərəcə təhlükəli olan fosfor bombalarından 5 dəfə istifadə etməklə müxtəlif vaxtlarda atəşə tutub.

Baş prokuror həmin halları sübut edən ətraflı foto və videomaterialları təqdim etməklə, BMT-nin insan hüquqları üzrə ali komissarından göstərilən faktların gələcək bəyanat və hesabatlarında qeyd edilməsini və törədilmiş cinayətlərlə bağlı səlahiyyət çərçivəsində Ermənistan rəhbərliyinə qarşı tədbir görülməsini xahiş edib.

# "Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü" mövzusunda beynəlxalq konfrans keçirilib

Noyabrın 10-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə "Müasir dünyanın problemləri: nifrətə çağırış, terror, ekstremizm, islamofobiya və Ermənistanın Azərbaycana qarşı təcavüzü" mövzusunda onlayn Beynəlxalq Konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Useymin, İslam aləminin, o cümlədən Yaxın Şərq, Afrika, Avropa və Asiyanın nüfuzlu siyasi-ictimai xadimləri və dini rəhbərləri iştirak ediblər.



Əvvəlcə "Qurani-Kərim"dən ayələr oxunub.

Tədbirin açılış mərasimində çıxış edən QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə konfrans iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını çatdırıb. Allahşükür Paşazadə Prezident İlham Əliyevi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı və Azərbaycan xalqını Qələbə münasibətilə təbrik edib.

QMİ sədri Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünü bərpa etmək, öz əzəli torpaqlarını erməni işğalından azad etmək uğrunda haqq mübarizəsinə verdikləri siyasi-mənəvi dəstəyə görə İslam Əməkdaşlıq Təşkilatına, Türkiyə, İran, Pakistan və Əfqanıstanın dövlət rəhbərlərinə və xalqlarına, İslam aləminin tanınmış şəxsiyyətlərinə, nüfuzlu dini liderlərinə və ictimai xadimlərinə dəstək bəyanatlarına və həmrəylik məktublarına görə dərin minnətdarlığını ifadə edib.

A.Paşazadə Ermənistanın öz işğalçılıq siyasətini və insanlığa qarşı müharibə cinayətlərini davam etdirərək Azərbaycanın Gəncə, Bərdə, Tərtər, digər şəhər və yaşayış məntəqələrində dinc əhalimizə qarşı terrorunu, işğal olunmuş ərazilərimizdə erməni ekstremistləri tərəfindən yüzlərlə məscid, məbəd və kilsənin, minlərlə məzarlığın dağıdılması, ümumislam əhəmiyyətli irs nümunələrinin mənşəyinin saxtalaşdırılması və dini məbədlərin qriqoryanlaşdırılması, hətta əsarətdə qalan məscidlərimizin tövləyə çevrilərək orada islamda haram buyurulan heyvanların saxlanılması kimi təhqir əməlləri barədə konfrans iştirakçılarına məlumat verib. Şeyxülislam Allahşükür Paşazadə erməni kilsəsinin bu işğalçılıq və vandalizm əməllərinə dəstək verərək Azərbaycanın işğal olunmuş ərazilərində ölənədək vuruşmağa çağırışlarını sülhə deyil, ölümə, işğala, təcavüzə xeyir-dua verməsini dini mərkəzə yaraşmayan və xristianlığın hökmlərinə zidd olan nifrətə çağırış nümunəsi kimi qiymətləndirib.

Şeyxülislam bütün islam ölkələrinə müraciət edərək Ermənistana Azərbaycana qarşı işğalçılıq siyasətinə dəstək ola biləcək hər hansı siyasi, mənəvi, iqtisadi, hərbi yardımlar göstərməməyə, o cümlədən öz ərazilərindən həmin məqsədlə təyinatlı daşımalara və muzdluların hərəkətinə yol verməməyə çağırıb.

Azərbaycanda Qələbənin və Dövlət Bayrağı Gününün qeyd olunduğunu bildirən QMİ sədri bu günlər işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın qədim şəhəri Şuşada Azərbaycanın üçrəngli Dövlət Bayrağının dalğalanmasını və azan səsinin ucalmasını böyük nemət kimi dəyərləndirib, bu münasibətlə xalqımızı təbrik edib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti sayəsində bütün torpaqlarımızın azad olunacağına, orada məscidlərimizi və ibadətlərimizi bərpa edəcəyimizə əminliyini ifadə edib.

Konfransda çıxış edən İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Useyminin xüsusi nümayəndəsi Məğrub Səlim Bat Azərbaycanın öz ərazi bütövlüyünün bərpası istiqamətində mübarizəsinə İƏT-in hər zaman dəstək verdiyini xüsusi vurğulayıb. Təşkilat tərəfindən son dövrdə verilmiş bəyanatların məhz bu baxımdan önəmini xatırladan İƏT təmsilçisi Azərbaycan Respublikası ilə həmrəy olduğunu bildirib, İslam Əməkdaşlıq Təşkilatının və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamə və qərarlarını xatırladıb, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında iki ölkə arasındakı münaqişənin siyasi həllinə tərəfdar olduğunu bildirib.

Türkiyə Cümhuriyyətinin Diyanət İşləri Başqanı Ali Erbaş Qarabağın ürəyi olan Şuşanın işğaldan azad edilməsi və Qələbə münasibətilə Azərbaycan xalqına təbriklərini çatdırıb, bu zəfərlərin davamlı olmasını arzulayıb. A.Erbaş beynəlxalq hüququ, insani, vicdani və əxlaqi əsasları heçə sayan, günahsız dinc insanların qanını tökən, mülki binaları hədəfə alan Ermənistanın həyata keçirdiyi terror aktlarını lənətlədiyini bildirib, eyni tarix, din, mədəniyyətin mənsubu olduqları dost və qardaş Azərbaycan xalqı ilə bir ürək kimi olduqlarını, ölkəmizin Azərbaycanın haqlı mübarizəsində daim onu dəstəkləyəcəklərini vurğulayıb.

İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Əbuzər İbrahimi Torkaman İranın Ali Rəhbəri Ayətullah-üzma Seyyid Əli Xamneyinin Azərbaycanın ərazi bütövlüyünə dəstək bəyanatına istinad edib. Bildirib ki, İran BMT-nin dörd qətnaməsinin yerinə yetirilməsini və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək hüququnu dəstəkləyir. Bu yolda islam ölkələrinin bir-birini müdafiə etməsi zəruridir. Təşkilat sədri Şuşanın azad olunması və Qələbə münasibətilə qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edib.

Beynəlxalq İslam Üləmaları Birliyinin Baş katibi Əli Muhyiddin Əl-Qaradaği 93 dövlətdən on minlərlə üləmanın üzv olduğu, onlarca üləma cəmiyyətinə malik təşkilat kimi Beynəlxalq Müsəlman Üləmaları İttifaqının, Allahın izni ilə, həmişə haqqın tərəfində durduğunu bəyan edərək, özünün, torpağının və suverenliyinin müdafiəsində duran doğma Azərbaycan xalqının yanında olduqlarını, təcavüzkar dövləti pisləyən, Azərbaycanın işğal altındakı bütün torpaqlarından Ermənistan silahlı birləşmələrinin çıxarılmasını tələb edən, təcavüzün və işğalın gec-tez acı aqibət gözlədiyini özündə əks etdirən geniş bəyanat verdiklərini diqqətə çatdırıb. Həmin bəyanatda vurğulanır ki, Ermənistan təcavüzkar dövlətdir, beynəlxalq qanunlara uyğun olaraq işğal etdiyi ərazilərdən mütləq çıxmalıdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında Ermənistanın Azərbaycana qarşı son hərbi təcavüzünün reallıqları barədə konfrans iştirakçılarını məlumatlandırıb. Bildirib ki, Ermənistan xristian təəssübkeşliyinə nail olmaq məqsədilə bu müharibəyə din xadimlərini cəlb edir, münaqişəni dini müstəvidə təqdim etməyə cəhdlər göstərir.

Misirin Parlament sədrinin birinci müavini, Şəriflər Cəmiyyətinin rəhbəri Əl-Seyyid Mahmud Əl-Şərif, ISESCO-nun Baş direktoru Salem bin Məhəmməd əl-Maliki, Pakistan Müsəlman İnstitutunun direktoru Sahibzadə Sultan Əhməd Əli, Əfqanıstan İslam Respublikasının Həcc, İrşad və Vəqflər naziri Məhəmməd Qasem Həlimi, Özbəkistan Müsəlmanları İdarəsinin sədri Usmonxon Alimov, İslam Əməkdaşlığı Təşkilatı nəzdindəki IRCICA-nın Baş direktoru Halit Eren, Seneqal Respublikası Prezidentinin Dini işlər üzrə müşaviri Şeyx Məhəmməd Mənsur Nias və Ukrayna Müsəlmanları Ruhani İdarəsinin sədri Əhməd Təmim Azərbaycanın öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizəsini dəstəklədiklərini, təcavüz nəticəsində dinc insanların qətlə yetirilməsi hallarını qətiyyətlə qınadıqlarını ifadə ediblər.

İtaliya Müsəlman İcmasının prezidenti, Milan məscidinin imamı Yəhya Pallaviçini, Keniya Müsəlmanları Ali Şurasının sədri Yusuf Abdulrahman Nzibo, Bolqarıstanın müftisi Mustafa Alış Hacı, Monteneqronun müftisi Rifat Feyzic, Macarıstan Müsəlman İcmasının sədri Zoltan Robert Bolek, Mərakeş Sufi və Estetik Araşdırmalar üzrə Beynəlxalq Akademik Mərkəzinin prezidenti Əziz Əl-Kobaiti İdrisi, Qırğızıstan Müsəlmanları İdarəsinin sədri Maksatbek Toktomuşev, Qazaxıstandakı Nursultan Nazarbayev Dinlərarası və Mədəniyyətlərarası Dialoqun İnkişafı Mərkəzinin İdarə Heyətinin sədri Altay Abibullayev, Tanzaniya Milli Müsəlman Şurasının sədri Xamis Səid Mataka və digərləri çıxışlarında beynəlxalq hüquqa əsasən Azərbaycanın öz suveren haqlarını bərpa etmək, öz təhlükəsizliyi və ərazi bütövlüyünün toxunulmazlığı uğrunda mübarizəsini dəstəklədiklərini, bu haqlı savaşın tezliklə qalibiyyətlə başa çatması üçün dualar etdiklərini xüsusi vurğulayıblar.

Sonda konfrans iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına təbrik müraciəti və yekun sənəd - Bəyanat qəbul ediblər.

## Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri erməni əsilli Azərbaycan vətəndaşlarına müraciət edib

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri Tural Gəncəliyev erməni əsilli Azərbaycan vətəndaşlarına müraciət edib. İcmadan AZƏRTAC-a daxil olan müraciətdə deyilir:

"Hörmətli erməni əsilli Azərbaycan vətəndaşları.

Bilirəm ki, mənim sizlərə etdiyim müraciətləri çox diqqətlə izləyirsiniz. Bu, məni sevindirir. Sonuncu müraciətimi böyük sayda erməni vətəndaşlarımız izlədi və sizlərdən çoxlu sayda ruhlandırıcı mesajlar, müraciətlər almışam. Çox şadam ki, erməni sakinlərimiz arasında çox sayda sülh, birgə yaşayış tərəfdarı olan şəxslər var. Mənə göstərdiyiniz bu diqqətə görə sizlərə təşəkkür edirəm.

Mənə etdiyiniz müraciətlərdən aydın olur ki, tezliklə sülhün bərqərar olmasını gözləyirsiniz. Sizlər kimi, Azərbaycan Respublikasının bütün vətəndaşları ərazi bütövlüyümüzün bərpasını və həm erməni, həm də azərbaycanlıların birgə sülh şəraitində yaşamağa başlamasını gözləyirlər.

Köhnə günlər çox yaxşı xatirimdədir. Şuşada və Xankəndidə küçələrdə erməni və azərbaycanlıların bir-birinə qarışan gülüş səslərini unutmamışıq. Ağacların altında, çayxanalarda nərd oynayan qocaları unutmamışıq. Parklarda, kafe və restoranlarda təmiz dağ havasında zövq alaraq gəzişən insanları unutmamışıq. İdman yarışlarında həm erməni, həm azərbaycanlı idmançıların birgə iştirakını unutmamışıq. Bir-birimizin sevincinə və kədərinə şərik olduğumuz günləri də unutmamışıq.

Bilirəm ki, sizlər də unutmamısınız. Biz yenidən mehriban qonşular kimi yaşayacağıq. Erməni və azərbaycanlı uşaqlar yenidən birlikdə bağçaya, məktəbə gedəcəklər. Uşaqlar qarışıq komandalara bölünüb, məhəllələrdə futbol oynayacaqlar.

Həmin günləri yenidən bərpa etmək üçün bizim yeganə yolumuz Azərbaycan Respublikasının qanunları çərçivəsində birgə yaşamağımızdır. Bir daha sizlərdən xahiş edirəm ki, döyüşlərin getdiyi bölgələrdən uzaq durun! Hər bir insan həyatı bizim üçün dəyərlidir. Sizin gələcəyinizin, təhlükəsizliyinizin təminatçısı olan Azərbaycan əsgərinə silah qaldırmayın. Azərbaycan əsgərləri humanistdir. Sadəcə, onlara güvənin. Onlar sizə toxunmayacaqlar. Azərbaycan Silahlı Qüvvələri mülki insanlara lazımi humanitar, tibbi dəstəyi göstərməyə hazırdır. Orduda xidmət edən övladlarınız varsa, onları geri çəkin.

Çalışaq ki, bu münaqişə tez bir zamanda, minimum itkilərlə başa çatsın və sülh bərqərar olsun. Elə olduqda, biz - Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı sakinləri tez bir zamanda keçmişdə olduğu kimi, sülh şəraitində birgəyaşayışa nail olacağıq. Sizi əmin edirəm ki, Şuşadakı Qazançı kilsəsi və digər mədəniyyət abidələri bərpa ediləcək.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qeyd edildiyi kimi, bizim erməni xalqı ilə heç bir işimiz yoxdur. Bu müharibə sizin də əziyyət çəkdiyiniz Ermənistanın korrupsioner hərbi-siyasi rəhbərliyinə və qondarma kriminal xunta rejiminə qarşı aparılır.




# Şəhid ruhu rahatlıq tapır bu gün





1990-cı ilin 20 Yanvarından üzübəri çox qovğalardan, çox sınaqlardan və qan-qadadan keçdik. Qapıbir qonşumuzun alçaqlığı və xəyanəti ilə üzləşdik. Torpaqlarımızın bir hissəsini itirdik, soyqırımına məruz qaldıq. Azadlığımız, müstəqilliyimizin əbədiliyi üçün çox qurbanlar verdik. Lakin yüz-yüz öldüksə də, yarandıq min-min! Vətənimiz, torpağımız uğrunda haqq savaşına qalxdıq.

30 ildən sonra müdrik Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sübuta yetirdik ki, bir qarış torpağımızı belə heç kəsə verən deyilik. Əgər bu, sülhlə, danışıqlar masası arxasında həll olunmursa, döyüşməyi də, torpaq və qeyrət yolunda candan keçməyi də, qalib gəlməyi də bacarırıq!

Bu gün sevinc və qürur hissi yaşamaqla bərabər böyük ehtiramla şəhidlərimizi anırıq. Çünki "Torpaq, əgər uğrunda ölən varsa, vətəndir!" Təsadüfi deyil ki, bir çoxumuz Şəhidlər xiyabanına üz tuturuq.

Bu günlərdə həmin müqəddəs məkana ilk gələn də Prezidentimiz və xanımı oldular. Noyabrın 8-də, Şuşanın işğalından düz 28 il 6 ay sonra - əziz şəhərimizin yağı tapdağından alındığı gün dövlət başçısı buradan xalqa müraciət etdi: "Əziz bacılar və qardaşlar, bu gün bu müjdəmi mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

Şəhidlər xiyabanına onlarca, yüzlərcə paytaxt sakini üz tutur. Uşaqdan böyüyə hamının simasından qürur hissi, qələbə sevinci oxunur. Hamı şəhidlərin ruhu qarşısında baş əyir, məzarlar üstünə gül-çiçək düzülür. Şəhidlər xiyabanına uşaqlarla gəlmiş ağsaqqala yaxınlaşırıq. Bu, uzun illər Bakı Soyuducular Zavodunda çilingərlər briqadiri kimi çalışmış Nazim Tağıyevdir. Deyir ki, əslən şuşalıdır:

- Bakıda böyüsək də, mən və qardaşlarım qəlbən həmişə o torpağa bağlı olmuşuq. Atam Osman Teymur oğlu Şuşada doğulmuş, cavanlığı Xankəndidə keçmişdi. Onun Qarabağ sevigisi bizim də qəlbimizə köçüb və böyük Azərbaycan sevgisinə çevrilib. Ona görə də bu gün ürəkdən demək istəyirəm ki, gözün aydın, Azərbaycan! Şəhidlər xiyabanına nəvələrim Ramal və Muradla gəlmişəm. Qoy onlar xalqımızın qəhrəmanlıq tarixini bir an belə unutmasınlar. Nə gizlədim, neçə illərdir ürəyimdə bir nisgil vardı. Elə bil sıxılır, qəmlənirdim ki, övladlarım, nəvələrim Şuşanı görməyiblər. İndi bizim ata-baba yurduna getmək arzumuz çin oldu.

Ağdam rayonunun Saybalı kəndindən məcburi köçkün Pərvanə Hüseynovanın da ürəyi dolu idi:

- Sevinc və həyəcan hissləri məni Şəhidlər xiyabanına gətirdi. Biz bu Qələbəyə görə torpaqlarımızın azadlığı uğrunda şəhid olan cəmi qardaşlarımıza, oğullarımıza borcluyuq. Var olsun Prezidentimiz və xalqımız, müzəffər Ordumuz. Bu neçə ildə dövlətimiz bizi köməksiz qoymadı. Evlə, işlə, dolanışıqla təmin olunduq. Mən ailəmlə birlikdə Müşfiqabad qəsəbəsində məcburi köçkünlər üçün salınmış şəhərcikdə yaşayıram. Heç nəyə ehtiyacım yoxdur. Amma doğma kənd, doğma oba həsrətlisiyəm. Sağ olsun dövlət başçısı, bizim bu həsrətimizə son qoydu.

Şəhidlər xiyabanında bir dəstə yeniyetmə oğlanla da rastlaşdıq. Buraya üçrəngli Azərbaycan bayrağı, alqırmızı qərənfillərlə gəlmişdilər. Böyük ehtiramla şəhid məzarlarını ziyarət edirdilər. Aralarından bir nəfər hamısının fikrini ifadə edərək bildirdi ki, Azərbaycanın qəhrəmanlıq tarixini dərindən öyrənirlər:

- Biz fəxr edirik ki, azərbaycanlıyıq, Azərbaycan vətəndaşıyıq. Tarix kitablarımızı diqqətlə vərəqləyirik. Son bir ay yarımda Ali Baş Komandanın qərarlarını, Ordumuzun qəhrəmanlığını anbaan izləmişik. Əsgərlik yaşımız çatmasa belə, bizim də hər birimiz döyüşməyə hazır idik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan! Onun bir qarış torpağına da yağı göz dikə bilməz!

Belə vətənpərvər ruhlu övladları böyüyən xalq məğlubedilməzdir və onun torpaqları bölünməzdir.

Müqəddəs ziyarət yerimiz olan Şəhidlər xiyabanından məhz bu duyğularla qayıtdıq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

*Əsgər anası:*

## "Sevinirəm ki, yazılan yeni, həm də şanlı hərb tariximizdə oğullarımın da payı var"

Müzəffər Ordumuz 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı azad etməklə yeni tarix yazdı. Respublikamızın ərazi bütövlüyünün təmin edilməsi üçün aparılan bu müqəddəs savaşda Azərbaycan gəncləri yüksək vətənpərvərlik hissləri nümayiş etdirdilər. Bu gün hər bir əsgər valideyni övladının şanlı tariximizin yazılmasında iştirakından qürur duyur.

Ağdam rayonu İmamqulubəyli kənd sakini Nağı Mirzəyevin də iki övladı - Orxan və Osman torpaqlarımızın azadlığı uğrunda müqəddəs savaşda iştirak edib. "Oğulu Vətən üçün böyüdürük" - deyən Nağı Mirzəyev özü də Qarabağ müharibəsi veteranıdır. 1990-cı illərin əvvəllərində torpaqlarımızın müdafiəsində iştirak edən keçmiş döyüşçü AZƏRTAC-a deyib: "Mən fəxr edirəm ki, övladlarım Qarabağın erməni işğalçılarından azad edilməsi uğrunda döyüşüblər. Özüm də keçmiş döyüşçü kimi döyüşlərə getmək üçün müraciət etmişdim. Şükür Allaha ki, ordumuz cəbhədə düşməni məğlub etdi. Ali Baş Komandanımızla, ordumuzla qürur duyuram".

Minayə Mirzəyeva övladlarının uşaqlıqdan vətənpərvər ruhda böyüdüklərini deyib: "Əsgərliyi bitirəndən sonra yenidən Vətənimizin müdafiəsinə yollandılar. Bir ana kimi fəxr edirəm ki, oğlanlarım Vətənimizin müdafiəsində dayanıblar. Cəbhədə ordumuzun uğurları bəlkə də ən çox əsgər analarını sevindirir. Bu gün ən böyük arzuma çatmışam. Sevinirəm ki, yazılan yeni, həm də şanlı hərb tariximizdə oğullarımın da payı var".




# Bakının qələbə sevinci...

Azərbaycan xalqı böyük coşğu ilə möhtəşəm qələbəsinin sevincini yaşayır. 10 noyabr 2020-ci il tariximizə unudulmaz bir gün kimi yazılmaqdadır. Gecə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev doğma xalqını böyük zəfər xəbəri ilə müjdələyib: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzaladıqları bu bəyanatın tarixi əhəmiyyəti var. Dövlət başçısı İlham Əliyevin xalqa müraciətini dinlədikcə buna əmin oluruq. Bununla qürurlanırıq ki, Ermənistan silahlı qüvvələri tərəfindən otuz ilə yaxın işğalda saxlanılan torpaqlarımızla Azərbaycanımızın bütövləşdiyi tarixin şahidləriyik.





İkinci Qarabağ müharibəsinin başladığı gündən, ordumuzun uğurlu əks-hücum əməliyyatına keçdiyi vaxtdan Azərbaycan xalqı bu xəbəri gözləyirdi. Qüdrətli Azərbaycan Ordusunun gücü və şücaəti sayəsində işğal altında olan bütün ərazilərimizin tezliklə azad ediləcəyinə inanırdıq. Və indi böyük fəxarətlə, sonsuz qürurla, səsimiz gəldikcə deyirik: Qələbə bizimdir!

Zəfər bayramı sevincimiz də elə o anlardan - Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu gecə xalqa müraciət edərək şanlı qələbəmizin müjdəsini verdiyi anlardan başlayıb. Gecəmiz gündüzə dönüb. Bu xəbər ölkənin bütün bölgələrində olduğu kimi, paytaxt sakinlərində də bayram əhvali-ruhiyyəsi yaradıb. Prezidentin müraciətindən qələbənin sevincini paylaşmaq üçün Bakı sakinləri küçələrə çıxıblar. Əllərində Azərbaycanın üçrəngli bayrağı və Ali Baş Komandanın portretləri olan paytaxt sakinləri şanlı qələbənin sevincini yaşayırlar. Bu sevinc və qürur hisslərini onlara yaşatdığına görə müzəffər Azərbaycan Ordusuna, Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq edirlər. Hər tərəfi üçrəngli bayrağımız, "Qələbə bizimdir!" "Qarabağ!", "Qarabağ Azərbaycandır!", "Yaşasın Ali Baş komandan!", "Azərbaycan Ordusuna eşq olsun!" kimi şüarlar bürüyür.

10 noyabr səhərimiz, beləcə, qələbə müjdəsi ilə açılır. Sanki üfüqdən ahəstə-ahəstə boylanan günəş də sevincimizə şərik olur. Hər tərəfdən bayraqlara bürünmüş maşınların siqnalları eşidilir. Paytaxt sakinləri qələbə şüarları səsləndirirlər. Vətənimizi, qələbəmizi, birliyimizi tərənnüm edən mahnılar da bir tərəfdən duyğularımızın tərcümanına çevrilir. Şəhərin yalnız mərkəzi küçələrindən, meydanlarından deyil, gözdən-nəzərdən uzaq yerlərindən də, hər evindən, hər küçəsindən də gəlir zəfər əzmli, qalibiyyət soraqlı bu səs, bu səda. Beləcə, Azərbaycanın paytaxt şəhəri - Bakı bayram əhvali-ruhiyyəsinə qərq olur.

Bu gün Fəvvarələr meydanında da qələbəlik var. Uşaqdan böyüyədək hər kəsin üzündə heç əskik olmayan təbəssümü: "Qürurumuz, fəxrimiz, fərəhimiz sonsuzdur, çünki Qarabağ Azərbaycandır", deyir.

Fəvvarələr meydanının bir tərəfində adamlar dövrə vurub yallı gedən gənclərə tamaşa edirlər. Sonra vətəni, onun uğrunda döyüşən əsgərlərimizi, qələbəmizi vəsf edən mahnılar bir-birini əvəz edir. Gənc qızlar, oğlanlar rəqs edirlər. Tamaşaçılar onları fərəhlə süzür, alqışlayırlar. Bu zaman Dövlət Himnimiz səsləndirilir. Hamı sağ yumruğunu düyünləyib köksünə sıxır. Bütün başqa səslər susur. Çünki Dövlət Himnimiz oxunur. Himnin bitdiyi an toplaşanlardan biri uca səslə: "Şəhidlər ölməz, Vətən bölünməz!" deyərək torpaqlarımızın bütövlüyü uğrunda canından keçən soydaşlarımızı böyük qürur və ehtiramla anır.

Sonra gənclərdən biri bu şüarı söyləyir: "Qarabağ bizimdir, bizim olacaq!". Başqa bir gənc oğlan qətiyyətlə ona etirazını bildirir: "Qardaş, bizim olacaq yox. Qarabağ bizimdir!" Alqış səsləri onun sözlərinə qüvvət verir.

Arabir şən zarafatlar da eşidilir. Ali Baş Komandanın artıq dillər əzbəri olmuş kəlamlarını təkrar edirlər: "Onları iti qovan kimi qovduq", "Bəs nooldu, Paşinyan?"... Gülüş səsləri sevinc haraylarına qarışır. İstər-istəməz düşünürsən: gülmək, sevinmək, qürrələnmək bu xalqa çox yaraşır.

İki gəncin əlində şirniyyatdolu qutular var. Qarabağ şirinliyi paylayırlar. Hər kəs sevincini ürəyindən keçən kimi göstərir. Şəhərin müxtəlif yerlərində, küçə və meydanlarda toplaşan insanlar musiqi sədaları altında qol qaldırıb rəqs edirlər.

Azərbaycan xalqı uzun illərdir həsrətində olduğu tarixi qələbəni belə qeyd edir. Paytaxt sakinlərindən biri - Teymur Balakişiyev deyir: "Mən Qarabağda doğulub-böyüməmişəm. Ancaq bu günlərdə hər bir azərbaycanlı özünü qarabağlı kimi hiss edir. Qarabağ qədim Azərbaycan torpağıdır. Onun erməni işğalçılarının əsarətində qalması hər bir azərbaycanlının qürurunu əzir, qəlbini incidirdi. Odur ki, Azərbaycan xalqı bir nəfər kimi Ali Baş Komandanın ətrafında birləşdi. Bu birlik düşmənlərə gözdağı oldu və bizi qələbəyə qovuşdurdu. Bundan sonra yolumuz daha da uzundur. Yaradılışdan gözəl olan Qarabağ torpaqlarını erməni işğalçıları talan edib, el-obalarımızı viran qoyub. Əl-ələ verib o yurd yerlərini yenidən gülüstana çevirəcəyik. Belə müdrik dövlət başçısı olan ölkənin gələcəyi parlaq, yolu həmişə zirvələrədir".

Füzuli rayonundan uşaq yaşlarında ayrılıb məcburi köçkün həyatı yaşamalı olmuş Sevinc Qarayeva isə danışdıqca kövrəlir: "Sevincimin həddi-hüdudu yoxdur. Uşaq ikən gördüyüm, yaddaşımda mühafizə etməyə çalışdığım ata yurdumu yenidən görəcəyəm. Bu tarixi günü, bu qüruru bizə Müzəffər Ali Baş Komandanımız, ordumuz bəxş etdi. Onlara minnətdarlıq duyğum sonsuzdur. Hər birimiz Ali Baş Komandanımızla, ordumuzla fəxr edir, qürur duyuruq. Onların sayəsində xalqımız bu tarixi günü yaşayır".

Bu günlərdə məmləkətimizdə bayram-bayrama qarışıb. 8 noyabr Şuşanın işğaldan azad olunduğu gün, 9 noyabr Azərbaycanın Dövlət Bayrağı Günü, 10 noyabr erməni işğalına son qoyulduğu gün...

Dağlıq Qarabağ münaqişəsi bitir. İyirmi səkkiz il əvvəl yaşanan kədər bu gün sona çatır. Azərbaycan xalqının yeni, gözəl çağları başlayır. Bu birliklə, bu yenilməz güclə, bu yüksək qələbə ruhu ilə ən böyük zəfərlər bizimdir.

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**

## Xaçmazlılar zəfər bayramını qeyd ediblər



Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu gecə xalqa müraciət edərək şanlı qələbə xəbərini verməsindən sonra xaçmazlılar da zəfər bayramını qeyd etməyə başlayıblar.

AZƏRTAC xəbər verir ki, yüzlərlə rayon sakini Xaçmaz şəhərinin küçələrində Ordumuzu, Ali Baş Komandan İlham Əliyevi dəstəkləyən şüarlar səsləndirib, bayraqlarla bəzənmiş avtomobillərlə yürüş ediblər.

Daha sonra şəhərin mərkəzində Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gələn rayon sakinləri bir-birini Böyük Qələbə münasibətilə təbrik edib, sevinclərini bölüşüblər.








## *Xalq yazıçısı Afaq MƏSUD:* “Gözün aydın olsun, əziz xalqım!”

Noyabrın 10-u Azərbaycan tarixinə ilk Milli Qələbə Günü kimi əbədi həkk olundu. Bütün xalqımızı bu müqəddəs gün münasibətilə ürəkdən təbrik edirəm!

AZƏRTAC xəbər verir ki, bu sözlərin müəllifi, Azərbaycanın Xalq yazıçısı Afaq Məsud qələbə sevincini bölüşərək daha sonra deyib:

“Gözün aydın olsun, əziz xalqım!” - deyirəm. Torpaqlarımız uğrunda canından keçmiş bütün şəhidlərimizə “Məkanınız cənnət olsun, igidlərim!” - deyirəm, - “Vətən, xalq heç bir zaman bu şəhidlik zirvəsini unutmayacaq!” Bu qələbənin müəllifi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə “Var ol, yaşa, Müzəffər Ali Baş Komandan! - deyirəm, - Azərbaycana tarixin ilk milli qələbəsini yaşadan, xalqa milli oyanış ruhunu bəxş edən, bu on yeddi ildə atılan müxalif daşlara məhəl qoymadan, tükənməz səbir və dözümlə addım-addım Qələbəyə aparan yolu məharətlə irəliləyən Böyük Sərkərdə!”

## *Xalq yazıçısı Kamal ABDULLA:* “Müzəffər öndərimiz İlham Əliyev Azərbaycanın gücünü bütün dünyaya sübut etdi”



*“Əziz Şuşa, biz qayıtdıq!” - bu sözləri Azərbaycan millətinin böyük oğlu, bütün zamanların böyük Azərbaycan sərkərdəsi, Müzəffər öndər İlham Əliyev dedi. Müzəffər öndərimiz Azərbaycanın gücünü, potensialını bütün dünyaya sübut etdi. Bütün dünya bu gün Azərbaycan xalqının həm mədəniyyətini, həm intellektual səviyyəsini, həm döyüş bacarığını, həm onun diplomatik gücünü gördü və bir daha biz öz bildiyimiz adekvat həqiqətimizi dünyaya çatdırdıq.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Xalq yazıçısı, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla deyib.

“Ulu Öndər Heydər Əliyevə Allah rəhmət eləsin. Allahdan razı olmalıyıq ki, bizim belə böyük bir sərkərdəmiz, bizim belə böyük bir Prezidentimiz var. Biz ordumuzla, qalibiyyətli əsgərlərimizlə, şəhidlərimizlə, qazilərimizlə, arxa cəbhədə bir yumruq kimi Azərbaycan adını göylərə qaldıran vətəndaşlarımızla ancaq fəxr edə bilərik. Bu gün qəhər boğazımızdadır. Bu gün bizim gözümüzdən sevinc yaşları axır. “Əziz Şuşa, biz qayıtdıq!” sözləri əbədi olsun. “Əziz Şuşa, biz səninləyik!” sözləri ömürlük olsun. Eşq olsun Azərbaycana, eşq olsun Müzəffər öndərimizə, eşq olsun Azərbaycan əsgərinə! Yaşasın Azərbaycan!”, - deyə Kamal Abdulla vurğulayıb.

## *Misirli professor:* “Azərbaycanın tarixi Qələbəsi 30 il əvvəl işğal edilmiş torpaqlara qayıdış hüququnun bərpa olunmasıdır”



“Mən Azərbaycan Prezidenti İlham Əliyevi, doğma Azərbaycan xalqını tarixi Qələbə münasibətilə təbrik edirəm. Bu qələbə azərbaycanlıların Ermənistan tərəfindən 30 il əvvəl işğal olunmuş torpaqlara qayıdış hüququnun bərpasıdır”. Bu sözləri AZƏRTAC-a müsahibəsində Misirin Həlvan Universitetinin professoru, politoloq Adel Dərviş söyləyib.

O bildirib: “Mən hələ iyulda sizə verdiyim müsahibədə qeyd etmişdim ki, hərbi təxribatlara əl atan Ermənistan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlı deyil. Onu da bildirmişdim ki, COVID-19 pandemiyası dövründə dərin böhran keçirən Ermənistanın baş naziri bu təxribatlarla öz xalqının diqqətini yayındırmaq istəyir. Lakin hər şeyin sonu olduğu kimi, bu təhlükəli oyunların da axırı gəlməli idi. Ermənistanın sentyabrın 27-də hərbi təxribatından sonra başlayan döyüşlər işğalçı ölkənin təslim olması ilə başa çatdı. Mən Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərlərinin, 300-dən çox yaşayış məntəqəsinin cəmi 40 gün ərzində işğaldan azad edilməsini böyük hərbi zəfər hesab edirəm. Ümidvaram ki, Dağlıq Qarabağda, nəhayət ki, sülh və təhlükəsizlik bərqərar olacaq. Doğma Azərbaycan xalqına öz torpaqlarında sülh və əmin-amanlıq arzu edirəm”.

# Co Bayden ABŞ-ın 46-cı Prezidenti olacaq

ABŞ-da keçirilmiş 59-cu prezident seçkilərinin ilkin nəticələrinə əsasən, hazırkı dövlət başçısı, respublikaçı Donald Tramp öz postunu qoruya bilməyib. Demokratların namizədi Co Bayden Seçkicilər Kollegiyasının 290 səsini qazanıb. Qələbə üçün isə 270 səs kifayət edirdi. Tramp 214 seçkiçinin səsini qazana bilib.



“Fox News” telekanalının verdiyi məlumata görə, səslərin hesablanması Corciya və Şimali Karolinada hələ başa çatmayıb. Lakin Tramp hətta bu ştatların hər ikisində qalib gəlsə belə, o, seçkiçilərin 270 səsini qazana bilməyəcək. Buna görə CNN artıq Baydenin qələbəsini elan edib və onu ABŞ-ın seçilmiş 46-cı Prezidenti adlandırıb. Bundan sonra isə Bayden özünü Amerika Birləşmiş Ştatlarının seçilmiş rəhbəri elan edib.

Lakin Prezident Tramp hələ də məğlubiyyətini etiraf etmir. Onun qərargahı noyabrın 7-də Baydeni və demokratları həqiqəti gizlətməkdə ittiham edib. Bununla yanaşı, Tramp vurğulayıb ki, “ABŞ-da seçkilər hələ bitməyib, Bayden isə rəsmən heç bir ştatda qalib kimi təsdiqlənməyib”. O, seçkilərdə məğlubiyyətini yalnız başlanan məhkəmə araşdırmalarının heç bir nəticə verməyəcəyi təqdirdə etiraf edəcək...

ABŞ Prezidentinin komandasının seçkilərlə bağlı qaldırdığı iddialar yalnız nəticələrin elan olunması prosesini ləngitməyə yönəlib. Bu fikri Köln Universitetinin professoru Kirk Canker səsləndirib.

Trampın tərəfdarları bir neçə “tərəddüd edən” ştatda Baydenin qələbə qazanacağına dair proqnozlar dərc olunduqdan sonra etiraz aksiyalarına başlayıblar. Atlanta (Corciya) şəhərində Amerika liderinin təxminən min tərəfdarı toplaşıb və “Bu hələ son deyil!” şüarı səsləndirib. Onlar kütləvi informasiya vasitələrini saxtakarlıqda ittiham ediblər.

Şənbə günü Arizonada və Miçiqanda manifestantlar arasında “sərt qarşıdurma” baş verib. Daha sonra gərginlik azalıb.

Trampa dəstək verən yürüşlər Olbani (Nyu York) və Kolumbiya (Cənubi Karolina) şəhərlərində keçirilir.

Öz növbəsində ABŞ-ın bir çox şəhərində - Filadelfiya (Pensilvaniya ştatı), Çikaqo (İllinoys ştatı) və Nyu Yorkda (Nyu York ştatı) Baydenin qələbəsini qeyd edirlər.

Üçüncü cəhddən qalib gələn və qələbəsini elan edən Co Bayden inauqurasiyadan sonra bir neçə fərman imzalamağa hazırlaşır. Bayden Uilminqtonda (Delaver ştatı) keçirilən mitinq zamanı bildirib ki, onun administrasiyası “ölkədə irqçiliyin kökünün kəsilməsi məqsədilə mübarizə aparacaq”. COVID-19-un yayılması ilə bağlı vəziyyət barədə danışarkən o, pandemiyanın qarşısının alınması məqsədilə aparıcı alim və ekspertlərin xüsusi plan hazırlayacağını bildirib. ABŞ-ın Paris İqlim Sazişinə, Ümumdünya Səhiyyə Təşkilatına qayıdışı, miqrantlarla bağlı siyasətin yumşaldılması, bəzi müsəlman ölkələrinin vətəndaşlarına tətbiq olunan viza qadağasının aradan qaldırılması gözlənilir.

Bu arada Fransa Prezidenti Emmanuel Makron Co Baydeni və Kamala Harrisi qələbə münasibətilə təbrik edərək bildirib ki, cari məsələlərin həlli üçün böyük işlər görülməlidir.

Böyük Britaniyanın Baş naziri Boris Conson Co Baydeni ABŞ Prezidenti, vitse-prezident seçilən bu vəzifədə ilk qadını- Kamala Harrisi “tarixi uğur” münasibətilə təbrik edib. “Amerika Birləşmiş Ştatları bizim ən vacib müttəfiqimizdir” deyə Conson Twitter-də yazıb. O, hər iki tərəf üçün prioritet olan məsələlər - iqlim dəyişikliyindən ticarətə və təhlükəsizliyə qədər sıx əməkdaşlığa ümid etdiyini bildirib.

Aİ liderləri Co Baydeni seçkilərdə qələbə qazanması münasibətilə təbrik edərək daha sıx transatlantik əməkdaşlığa çağırıb. Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen bildirib ki, “Avropa Komissiyası koronavirus pandemiyası, iqlim dəyişikliyi və ümumi təhlükəsizlik məsələləri kimi problemləri həll etmək üçün yeni administrasiya və yeni Konqreslə əməkdaşlığı fəallaşdırmağa hazırdır”.

Avropa Parlamentinin sədri David Sassoli də Baydenə ən xoş arzularını çatdıraraq “hazırda qarşımızdakı çoxsaylı çağırışlara qarşı dura biləcək transatlantik münasibətləri dirçəltməyə” çağırıb.

NATO-nun baş katibi Yens Stoltenberq ABŞ və Avropa arasında Prezident Baydenlə münasibətlərin yaxşılaşacağına ümidvar olduğunu bildirib.

Almaniya Kansleri Angela Merkel Co Baydeni qələbə münasibətilə təbrik edib: “Mən Prezident Bayden ilə gələcək əməkdaşlığa şadam. Əgər biz bu dövrün çağırışlarının öhdəsindən gəlmək istəyiriksə, transatlantik dostluğumuzu heç nə ilə əvəz edə bilmərik”.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer öz təbrikində qeyd edib ki, Baydenin prezidentliyi ilə “ABŞ-ın, o cümlədən Almaniyanın hüdudlarından kənarda saysız-hesabsız insanların ümidləri bağlıdır”.

İran Prezidenti Həsən Ruhani ABŞ-ın növbəti administrasiyasının Tehranı Vaşinqtonun təkid etdiyi hərəkətlərə məcbur edə bilmədiyini başa düşəcəyinə ümid etdiyini bildirib:” Xalqımız son üç il ərzində iqtisadi terrorizmlə üzləşib və misli görünməmiş dayanıqlıq nümayiş etdirib. Ümid edirik ki, bu üçillik təcrübə qanun-qaydalara riayət edəcək və öhdəliklərinə qayıdacaq növbəti Amerika administrasiyası üçün dərs olacaq...”

“Mənim üçün böyük şərəfdir ki, siz məni böyük ölkəmizin lideri seçmisiniz. Bizim görəcəyimiz işlər ağır olacaq, amma sizə söz verirəm ki, mən bütün amerikalılar üçün prezident olacağam-sizin mənə səs verməyinizdən asılı olmayaraq” deyə Bayden Twitterdə yazıb.

Bu seçkilərdə son yüz il ərzində rekord iştirak olmuşdur. Bayden hazırda 74 milyondan çox səs qazanıb - bu, prezident seçkilərində namizəd üçün ən yüksək nəticədir.

78 yaşlı Bayden ABŞ tarixində ən yaşlı Prezident olacaq. Bundan əlavə, o, Con Kennedidən sonra ikinci katolik Prezidentdir.

Bununla yanaşı, bəzi ştatlarda səslərin sayılması davam edir və nəticələri hələ rəsmi hesab etmək olmaz. Adətən, bu, seçkilərdən bir neçə həftə sonra baş verir və Seçkiçilər Kollegiyasının 538 üzvünün dekabrın 14-də səsvermə üçün görüşünədək elan edilməlidir.

Seçkiçilərin səsləri adətən hər bir ştatda səslərin bölüşdürülməsini əks etdirir. Lakin bəzi ştatlarda bu, formal tələb deyil.

Yeni Prezident nazirləri təyin etmək və prioritetləri müəyyənləşdirmək üçün zəruri olan keçid dövründən sonra vəzifəyə gələcək.

Prezident seçkilərinin yekunları üzrə andiçmə mərasimi 20 Yanvar 2021-ci il tarixinə planlaşdırılır.

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***






# Ermənistanda xalq ayağa qalxdı

## Paşinyanın yeri məlum deyil



Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ müharibəsində məğlub və təslim olma aktını imzaladıqdan sonra Ermənistanda günlərdir davam edən siyasi gərginlik pik nöqtəsinə çatıb. Ötən gecə Yerevanda baş verənlərdən sonra ölkədə, demək olar ki, hakimiyyətsizlik və siyasi xaos hökm sürür. İnsanlar harada olduğu bilinməyən Paşinyanın baş nazir postundan istefasını tələb edir.










Bunu Ermənistanda on minlərlə insanın iştirakı ilə Paşinyan hökumətinin istefa verməsi tələbi ilə keçirilən aksiya da aydın şəkildə sübuta yetirdi. Amma baş nazir küçələrə hərbi və polis qüvvələri çıxararaq sələfləri kimi hakimiyyəti güc yolu ilə qəsb etməyə hazır olduğunu göstərir.

### Parlamentin sədri etirazçılar tərəfindən döyülüb

İki gündür davam edən etiraz aksiyaları artıq özünün daha gərgin və həlledici mərhələsinə qədəm qoyub. Belə görünür ki, etiraz edənlər Paşinyanın devrilməsində, sonuncu isə güc yolu ilə olsa belə tutduğu yeni postu saxlamaqda israrlıdır. Bu isə vətəndaş müharibəsinin başlanmasını qaçılmaz edir.

Xatırladaq ki, noyabrın 9-dan 10-na keçən gecə Yerevanın mərkəzinə əhali imzalanan akta etiraz edərək küçələrə çıxıb. Etirazçılar hökumət binasına girib, şüşələri və qapıları qırıblar. Binada olan xüsusi xidmət orqanları əməkdaşları etirazçılara müqavimət göstərməyiblər. Etirazçılar daha sonra baş nazirin kabinetinə girərək dövlət atributlarını binadan çıxarıb istefa tələbi ilə çıxış ediblər. Onlar keçmiş prezident Robert Koçaryanı Paşinyana qarşı hərəkata rəhbərlik etməyə çağırıblar. İğtişaşlar nəticəsində baş nazirin iqamətgahından kompüterinin, saatının, sürücülük vəsiqəsinin və digər əşyaların oğurlandığı açıqlanıb.

